www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 iyul 2015-ci il Cümə axşamı № 154 (6182) Qiymıəti 40 qəpik

**Xəbər**

## Məhkumu soyundurub, videoya çəkib pul tələb etdilər

yazısı səh.2-də

**Gündəm**

### Prezident Beynəlxalq Bankla bağlı fərman verdi




Banka məxsus aktivlər mərhələli şəkildə bankın balansından çıxarılaraq dövlətə məxsus "Aqrarkredit" QSC-nin idarəetməsinə veriləcək; dövlətə məxsus səhmlərin özəlləşdirilməsi altı ay sonra başlaya bilər

yazısı səh.5-də

### Leyla və Arif Yunusların məhkəməsi olayla başladı

yazısı səh.4-də

### AZAL-da qiymət müəmması

yazısı səh.6-də

### ATƏT PA-nın qətnaməsi Azərbaycana nə vəd edir...

yazısı səh.8-də

### Ermənilər girovluqdakı Dilqəm Əsgərovun yeni görüntülərini yaydılar

yazısı səh.12-də

### Amerikalı həmsədrin "Azərbaycan əraziləri qaytarılmalıdır" açıqlamasının pərdəarxası

yazısı səh.13-də

### Prezidentə necə məktub yazmaq olar...

yazısı səh.10-da

### Ölkədə ucuz sosial evlər almaq mümkün olacaq

yazısı səh.11-də

### "Dünyada hər 10 nəfərdən birinin ruh sağlığı yerində deyil"

yazısı səh.15-də

### "Lada" yolun kənarında dayanan maşına çırpıldı; 5 yaralı

yazısı səh.14-də

**Ramazan ayının 29-cu günü**

İftar 21.26. İmsaq (azan) 4.57 (QMI)

29-cu günün duası: "İlahi, bu gün məni Öz rəhmətinlə əhatə et! Belə bir gündə işlərimin uyğun olmağını və hər bir azğınlıqdan qorunmağı mənə nəsib et! Mənim qəlbimi şübhəli işlərdən, qaranlıq yollardan və töhmət gətirən əməllərdən pak et! Ey mömin bəndələrinə rəhm edən Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# Qarabağda savaş riskləri artır

## "AZƏRBAYCAN MÜHARİBƏYƏ BAŞLAYIR" - NATO RƏSMİSİ...

Amerikalı vasitəçinin, NATO yetkilisinin "müharibə hər an alovlana bilər" əndişələri boşuna deyil; ordumuzun torpaqları qısa zamanda işğalçılardan təmizləmək əzmi hər gün daha qabarıq görünür; prezidentin "Bir həftəyə işğalçının daşı daş üstdə qalmaz" xəbərdarlığı həm də ermənilərin havadarlarına mesajdır ki...



Toğrul İsmayıl

yazısı səh.9-da

## Fazil Məmmədovun yaxın ətrafı təlaşda - həbslər ola bilər

Prezidentin sərt tənqidindən sonra vergilər nazirinin klanı panika içindədir; Xaləddin İsgəndərov "Fazili işdən çıxarsalar, bəlkə də məni tutdular" deyib...

yazısı səh.5-də



*Ərəstun Oruclu:*

### "İran-Qərb anlaşması regionun siyasi mənzərəsini dəyişəcək"

yazısı səh.3-də



*Siyavuş Novruzov:*

### "Cavabdehlər öz cəzasına çatacaq"

yazısı səh.7-də



### Vaqif Mustafayevin Sevil Əliyeva revanşı

yazısı səh.5-də



## Şirvandakı partlayışda yaralanan qadınlardan biri də öldü

**Müdafiə Sənayesi Nazirliyinin (MSN) Şirvan şəhərindəki "Telemexanika" zavodunda baş vermiş partlayış nəticəsində xəsarət alanlardan daha biri Respublika Yanıq Mərkəzində vəfat edib. Yanıq Mərkəzindən APA-ya verilən məlumata görə, 1961-ci il təvəllüdlü Gülnarə Vəlixan qızı Muradova iyulun 15-də səhər saat 7 radələrində reanimasiya şöbəsində dünyasını dəyişib.**

Qeyd edək ki, iyulun 7-də zavodun sexlərinin birində yaranmış qısaqapanma nəticəsində sıçrayış olub, nəticədə 20 kvadratmetr sahədə yanğın baş verib. Baş verən hadisə zamanı 2 nəfər ölüb, 19 nəfər xəsarət alıb.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Yeni Müsavat"a deyib ki, hazırda iş üzrə istintaq davam etdirilir. Faktla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Hadisənin baş vermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Bakıda adam oğruları peyda olub?

**Bakıda 2 övlad atası olan 33 yaşlı Emil Bədəlov itkin düşüb. Məlumata görə, E.Bədəlov iyunun 16-da evdən çıxıb və bir daha geri qayıtmayıb. O, evdən çıxarkən yaxınlarına "Elmlər Akademiyası" metro stansiyası yaxınlığında yerləşən kirayəyə verdiyi mənzilindən kirayə haqqını almaq məqsədilə getdiyini bildirib.**

Lakin E.Bədəlov geri qayıtmayıb. Yaxınları onu ehtimal etdikləri bütün ünvanlarda axtarıblar. Lakin həmin ünvanlarda kimsə E.Bədəlovu gördüyünü deməyib. Bundan sonra onun ailə üzvləri hüquq-mühafizə orqanlarına üz tutublar. E.Bədəlovun idarə etdiyi avtomobil metronun "Elmlər Akademiyası" metro stansiyasının yaxınlığında aşkar edilib. Avtomobilin qapıları açıq olub və heç bir sənədə toxunulmayıb. E.Bədəlovun yaxınları milli.az saytının əməkdaşına bildiriblər ki, onun oğurlandığını güman edirlər. Onun yoxa çıxmasından başqa hər hansı bir səbəb ağıllarına belə gəlmir.

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Yasamal Rayon Prokurorluğu ilə əlaqə saxlayıb. Prokurorluqdan E.Bədəlovun yaxınlarının müraciətindən sonra ilkin olaraq faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlandığını bildiriblər. Hər hansı bir əlavə məlumat verilməyib. Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Suriyada döyüşən azərbaycanlıya 13 il həbs verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada döyüşlərdə iştirak etməkdə təqsirləndirilən Ramil Aslanovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə R. Aslanov 13 il müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, R. Aslanov Suriyada döyüşlərdə iştirak etməkdə təqsirləndirilir. O, Bakıya qayıdan zaman hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən tutulub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Azərbaycan Türkiyəni küsdürüb?

## Türkiyə mətbuatı belə yazır, "Azərkosmos" ASC isə təkzib edir: "Türkiyə mətbuatı tezliklə təkzib xarakterli mətn yayacaq..."

**Türkiyə Azərbaycana "Türksat"ın olduğu bölgələrdə ortaq peyk administratorluğu təklif edib, ancaq təklifinə rədd cavabı alıb. Peyk sahəsində, tarixi və mədəni yaxınlıq olan ölkələrlə müxtəlif əməkdaşlıq işləri edən "Türksat"la əlaqəli maraqlı bir detal ortaya çıxıb.**



Türkiyə mətbuatı "Qardaş ölkə Türkiyəni arxadan bıçaqlayıb!" başlıqlı bu xəbəri belə şərh edir: "Türkiyə Azərbaycana hər zaman arxa çıxdı. Amma bəzən istədiyi dəstəyi qardaş ölkədən ala bilmədi. Bunun son nümunəsi "Türksat" peyki oldu. Türkiyə Azərbaycana "Ortaq peyk işlədək" təklifi etdi, onlar daha bahalı olan rəqib firmanı seçdi. Bu əməkdaşlıq bölgədə şirkətimizə qarşı təhdid ünsürləri meydana gətirib. Peyk texnologiyası və peyk xidmətləri mövzusunda olan hər işdə tarixi və mədəni bağların olduğu ölkələrlə müxtəlif mövzularda ortaqlıq işlərinin edildiyi hər kəsə məlumdur. Bu işlərlə həm tarixi və mədəni bağların daha da güclənməsi, həm də bölgə sabitliyinə qatqı təmin etmək məqsədi güdülür".

**Lakin "Azərkosmos" ASC-nin mətbuat xidmətindən "Yeni Müsavat"a verilən məlumatda bildirilir ki, bu məlumatlar həqiqəti əks etdirmir. Xidmət əməkdaşlarının sözlərinə görə, ümumən onların "Türksat"la münasibətləri və əməkdaşlıqları olduqca yüksək səviyyədədir. Beynəlxalq konfranslarda əməkdaşlıqlar etdiklərini xatırladan xidmət sözçüsü həmçinin qeyd etdi ki, bu sayaq məlumatların haqdan qaynaqlandığını bilmirlər:** "Bu xəbərlərdən sonra biz də əlaqə saxladıq. Onlar da belə yanlış məlumatların yayılmasından məyus olublar. Bu məlumatların haradan qaynaqlandığından da xəbərsizdirlər. Təkzib xarakterli mətn tezliklə yayılacaq".

❑ **Sevinc TELMANQIZI**

## Məhkumu soyundurub videoya çəkib pul tələb etdilər

**Dustağın atası:** "Oğluma deyiblər ki, əgər pul verməsən, lüt videonu məhkumlara göstərəcəyik..."

**13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan məhkum Rövşən Qərib oğlu Əmirova işgəncə verilib. Bu haqda "Yeni Müsavat"a onun atası Qərib Əmirov məlumat verib. Deyib ki, oğluna işgəncə verən müəssisənin baş ədliyyə leytenantı, dəstə rəisi olan Elman Nuriyev və onun köməkçisi məhkum Telman Arif oğlu Rəsulovdur.**

Məhkum atasının sözlərinə görə, 8 iyul 2015-ci ildə görüşdən sonra oğlundan 5 manat istəyiblər. O da deyib ki, pulu yoxdur. Bundan sonra onu E.Nuriyev otağına aparıb və orada ona işgəncə veriblər. "Elman Nuriyev oğlumun əllərini tutub, köməkçisi isə 15-lik dəmir su borusu ilə onun böyrəklərinin üstünə vurub. Huşu itəndən sonra isə paltarlarını çıxarıb lüt şəkildə videoya çəkiblər. Oğluma deyiblər ki, əgər pul verməsən, lüt videonu məhkumlara göstərəcəyik. Oğlumdan əvvəl Ceyhun adlı məhkumun videosunu çəkib göstəriblər. Oğlum müəssisə rəisinə bu haqda məlumat verib. Qaradağ Rayon Prokurorluğuna da şikayət etmişik", - deyə məhkumun atası bildirib.

Məsələ ilə bağlı Penitensiar Xidmətin mövqeyini dərc etməyə hazırıq.

❑ **E.HÜSEYNOV**




## "Dəyərlər TV"-də yeni veriliş: İslamda ailə

**"Dəyərlər TV" 15 iyuldan etibarən seyrçilərin görüşünə zamanın ən aktual mövzularından biri - ailə mövzularına həsr ediləcək veriilişlə - İSLAMDA AİLƏ verilişi ilə gəlir.**

Həftədə bir dəfə yayımlanması nəzərdə tutulan bu verilişdə İslamda ailə mövzusunu əhatə edən bütün mövzuların işıqlandırılması, müzakirə edilməsi, cəmiyyətin bu mövzulara yanaşmalarının öyrənilməsi nəzərdə tutulur.

İnternet televiziya tamaşaçılarının da verilişə öz suallarını, təşəbbüs və təkliflərini göndərmək imkanı var. Aşağıdakı ünvanlara fəal müraciətlərinizi göndərin.

Əlaqə ünvanı:

Facebook-da Hacı İlqar İbrahimoğlu səhifəsiemail: deyerler.org@gmail.com ailto:deyerler.org@gmail.com

## Rayon maşınları ilə bağlı qadağa tam götürüldü

**Artıq qeyri-Bakı dövlət qeydiyyat nişanlı avtomobillərin paytaxta buraxılmasına qadağa qoyulmur. Bunu "Trend"ə Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin (BŞDYPİ) İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov deyib.**

Bölmə rəisinin sözlərinə görə, bununla bağlı rəsmi qərar olmasa da, iyun ayında birinci Avropa Oyunları ilə bağlı şəhərə qeyri-Bakı dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələrinin girişinə qoyulmuş qadağa faktiki olaraq artıq yoxdur.

Ona görə də istər Sumqayıtdan, istərsə də bölgələrdən gələn avtomobillərin paytaxta girişinə məhdudiyyət qoyulmur.

## Təyyarə və helikopterlərimiz cəbhəboyu uçuşlar keçirir

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Azərbaycanın Hərbi Hava Qüvvələrinin (HHQ) təyyarə və helikopterləri cəbhəboyu zona üzərində təlim-döyüş uçuşları keçirir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, təlimlərdə döyüş vəziyyətinə yaxın və şərti düşmən tərəfindən radioelektron maneələrin tətbiqi şəraitinə uyğun, düşmənin yerüstü, hava-hücumundan müdafiə qurğuları və digər hədəflərinə zərbə endirmək, quru quşunları ilə qarşılıqlı əlaqədə fəaliyyət üzrə tapşırıqlar məşq etdirilir.

## TQDK-dan ictimaiyyətə müraciət

"Ali məktəblərin müsabiqəsində iştirak etmək üçün tələb olunan müsabiqə şərti ilə bağlı məlumatlar təhrif olunub"

**"Bir sıra xəbər saytlarında Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək üçün tələb olunan müsabiqə şərti ilə bağlı verilmiş məlumatlar təhrif olunub".**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qeyd olunan məlumatlarda müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal həddi ixtisaslara keçid balı kimi təqdim olunub: "Abituriyentlərin nəzərinə bir daha çatdırırıq ki, bunlar tamamilə fərqli anlayışlardır".

TQDK-nın məlumatında bildirilir ki, keçid balı müsabiqə aparıldıqdan sonra hər ixtisas üzrə ayrı-ayrılıqda formalaşan və müvafiq ixtisasa ən aşağı balla qəbul olan abituriyentin balına bərabər olan göstəricidir: "Keçid balı müəyyən ixtisas üzrə müsabiqədə iştirak edən abituriyentlərin sayı, həmin ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələrindən asılı olur. Fərz edək ki, hər hansı ixtisas üzrə qəbul planı 40 yerdən ibarətdir. Həmin ixtisası ərizəsində müsabiqə şərtlərini ödəmiş 200 nəfər göstərib. Bu zaman həmin 200 nəfərdən ən yüksək bal toplayan 40 abituriyent bu ixtisasa qəbul edilir və 40-cı abituriyentin balı həmin ixtisas üzrə formalaşmış keçid balı olur.

Müsabiqə şərti isə TQDK tərəfindən hər hansı bir ixtisas qrupunun, yaxud ixtisasın müsabiqəsində (ixtisas seçimində) iştirak etmək üçün qoyulan minimal tələbdir. Belə ki, hər bir qrup üzrə ixtisasların müsabiqəsində yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər.

2015/2016-cı tədris ili üçün I, II, III və IV ixtisas qruplarının müsabiqəsində (ixtisas seçimində) ümumi balı 200-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilər. Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "İran-Qərb anlaşması regionu dəyişəcək"

## Ərəstun Oruclu: "Uzun vədəli baxdıqda, hesab edirəm ki, bu, həqiqətən çox tarixi bir sazişdir"

**İran və "altılıq" ölkələri arasında iki ildir davam edən mütəmadi danışıqlar axır ki, yekunlaşdı. İyulun 14-də əldə olunmuş yekun müqaviləyə əsasən, İran qarşıdakı 10 il ərzində nüvə enerjisi istehsalını azaldır, nüvə mərkəzlərini beynəlxalq müfəttişlərə açır. Zənginləşdiriləcək uran isə silah istehsalı üçün yetərli olmayacaq.**

Anlaşmanın İran üçün önəmli olan tərəfi isə İslam respublikasına qarşı tətbiq olunan sanksiyaların ləğv olunması, embarqoların götürülməsi, o cümlədən BMT-nin 7 qətnaməsinin qüvvədən düşməsini ehtiva edir. Mütəxəssislərə görə, bu anlaşma nəticəsində İranın dünya banklarında dondurulmuş pulları da geri qaytarılacaq. Söhbət 120 milyard dollara yaxın vəsaitdən gedir, hansı ki, onun bir qismi artıq geri qaytarılıb. Bundan başqa, İran dünya enerji bazarına geri dönəcək, böyük miqdarda neft və qaz istehsal edib bazara çıxaracaq. Bu isə təbii ki, qiymətlərə təsir edəcək. Neftin qiyməti ucuzlaşacaq. Yeri gəlmişkən, artıq dünəndən başlayaraq "qara qızıl"ın qiymətində enmə qeydə alınıb. BBC-nin məlumatına görə, Vyana danışıqlarının razılıqla bitməsi xəbəri yayıldıqdan sonra "Brent" markalı neftin qiyməti 1.15 dollar ucuzlaşaraq 56.70 dollar olub, "US crude" markalı neft isə 1.05 dollar ucuzlaşaraq 51.15 dollar olub.

"Reuters" agentliyinin ekspert rəy sorğusuna əsasən, İranda neft hasilatının yaxın il ərzində 60 faiz qalxa biləcəyi ehtimal olunur. Bəzi təhlilçilər qeyd edir ki, İranda neft hasilatının hətta azacıq həcmdə artacağı təqdirdə dünyada neft qiymətləri xeyli aşağı düşə bilər. Hazırda dünya bazarında neftə gündəlik tələbatdan 2.5 milyon barel artıq neft hasil olunur.

Ancaq İranın Qərblə anlaşması yalnız enerji sahəsinə deyil, eyni zamanda siyasi və hərbi güc istiqamətində də regionda öz təsirini qoyacaq. Müşahidəçilərə görə, İranın daha da güclənməsi daha yaxşı silahlanması və paralel olaraq regiondakı müttəfiqlərini silahlandırması anlamına gəlir. Bundan başqa, İslam respublikasının Yaxın Şərqdə siyasi və diplomatik gücünün artması da proqnozlaşdırılır.

Qeyd edək ki, artıq Avropa ölkələri İranla əlaqələrin yenidən bərpa olunmasının sevincini yaşayır. Almaniya Sənaye və Ticarət Qurumları Birliyi (DİHK) xarici iqtisadiyyat şöbəsinin müdiri Volker Treier "Reuters" agentliyinə bildirib ki, embarqoların ləğvindən sonra qarşıdakı iki il ərzində Almaniyanın İrana ixracatı iki dəfə artaraq 5 milyard avroya çata bilər. DİHK-nın məlumatına görə, hazırda 80 alman şirkətinin şöbəsi, 1000 şirkətin isə təmsilçiliyi mövcuddur. Bu mənada Almaniya şirkətləri üçün İran xeyli cəlbedicidir. Kansler Angela Merkel isə tərəfləri əldə olunmuş müqaviləni tez bir zamanda təsdiqləməyə çağırıb.

Qeyd edək ki, İran qonşu ölkə olduğu üçün bu ölkədə baş verənlər hər zaman Azərbaycan üçün də ciddi önəm kəsb edir. Bir neçə il əvvəl İran-Qərb münasibətlərinin ən gərgin çağında ehtimal olunan müharibə Azərbaycan üçün ciddi əndişə yaradırdısa, bu gün İran-Qərb anlaşmasının mümkün təsirləri müzakirə olunur. Yeri gəlmişkən, son illərdə İranla Qərb arasında danışıqların başlaması ilə start götürən yumşalma fonunda Azərbaycanın bir sıra iş adamları İrana sərmayə qoymağa başlayıb. İran tərəfi konkret şirkətlərin adını qeyd etməsə də, bir neçə bölgədə yaradılmış azad iqtisadi zonalarda azərbaycanlıların şirkətlərinin də fəaliyyətə başladığını qeyd edirlər.

**Politoloq Ərəstun Oruclu deyir ki, İranla Qərb arasında anlaşma ilkin mərhələdə Azərbaycan üçün sərfəli olmasa da, sonrakı mərhələdə faydalı olacaq:** "İranla Qərb arasında əldə olunan anlaşma iki mərhələdə Azərbaycana təsir göstərəcək. İlkin mərhələdə bu anlaşmanın Azərbaycana neqativ təsiri olacaq. Əvvəla, təzyiqlərdən, embarqolardan xilas olaraq xeyli dərəcədə sərbəst olan İran ətrafında, marağı olduğu ölkələrə təsirini gücləndirəcək. İran təcrid vəziyyətində ola-ola müxtəlif vasitələrlə, o cümlədən həmin dövlətlərdə olan şiə icmaları vasitəsilə ən azı 10-11 dövlətə təsir edə bilirdisə, indi imkanları daha da genişləndikdən sonra bu təsir artacaq. Nəzərə alsaq ki, bu vəziyyət Azərbaycan-Qərb münasibətlərinin pozulması fonunda baş verirsə, deməli, risk dərəcəsi kifayət qədər yüksəkdir. Unutmaq olmaz ki, həmin siyasəti həyata keçirən mühafizəkar qanaddır və indi o qanad uduzmuş kimi görünür. Yəni bu mənada İran daxili proseslərin yaxın qonşu dövlətlərə neqativ təsiri ola bilər. Bu sırada Azərbaycan da var".

**Ancaq ekspertə görə, gələcəyə baxdıqda bu anlaşmanın Azərbaycana faydaları daha çox ola bilər. Ə.Oruclunun fikrincə, İranın Azərbaycan üzərindən keçən enerji layihələrinə qoşulması böyük bir imkanlar yaradacaq:** "Uzun vədəli baxdıqda, hesab edirəm ki, bu, həqiqətən çox tarixi bir sazişdir. Bu təkcə bölgənin geosiyasi mənzərəsini deyil, İranın simasını da dəyişəcək. Belə bir qonşunu olmaq Azərbaycan üçün də müəyyən şansdır. Ən idealı o olardı ki, məsələn, bu gün İran səfirinin bəyan etdiyi kimi, İranın TAP və TANAP layihələrinə maraq göstərməsi reallaşsın. Yəni bu layihələr bilavasitə Azərbaycanın iştirakı və vasitəsilə həyata keçirilsin. Ümid edirəm ki, bu, belə də olacaq. Çünki bu halda artıq Azərbaycan çox önəmli partnyora çevrilir. Deməli, avtomatik olaraq ortada olan şübhəli, qısqanc münasibət də arxa plana keçəcək. Çünki müştərək maraqlar önə çıxır. Başqa bir tərəfdən, unutmaq olmaz ki, İran bizim üçün həm də əhalisinin 40 faizini azərbaycanlılar təşkil edən ölkədir. Bu mənada onun uğuru müəyyən mənada həm də bizim uğurumuz ola bilər. Yəni bizim enerji layihələrimizə xətər toxunmayacaqsa, əksinə, İran bizim enerji layihələri vasitəsilə Avropaya çıxacaqsa, mən hesab edirəm ki, bu, çox müsbət effekt verəcək".



**Ə.Orucluya görə, bu anlaşmadan sonra İranın bölgədə rolu artacaq. Bu anlaşmadan hər iki tərəfin qazanclı çıxdığını deyən ekspertin fikrincə, yaxın zamanlarda bunun nəticələri hiss olunmağa başlayacaq:** "Bizim bölgəni deyə bilmərəm, amma Yaxın Şərqdə İranın təsirinin artması dəqiqdir. Bu baxımdan da Səudiyyə, Türkiyə, İsrail kimi dövlətlərin narahatlığı anlaşılandır. Son zamanlar Səudiyyə Ərəbistanı yüksək çinli məmurlarının ər-Riyad-Moskva yolunu "su yoluna" çevirməsi də təsadüfi deyil. Amma düşünmürəm ki, Səudiyyə-Rusiya əməkdaşlığına İsrail də maraq göstərəcək. Çünki xüsusilə də indiki şəraitdə İsrailin təhlükəsizliyinin qarantı Rusiya, Səudiyyə Ərəbistanı və bir başqası deyil, yalnız və yalnız ABŞ ola bilər. ABŞ isə bu mənada bölgədə öz mövqelərini daha da möhkəmlətmiş oldu. Bu, sərfəli olmasaydı İran tərəfi buna getməzdi. İran prezidenti də anlaşma əldə olunmasından dərhal sonra etdiyi müraciətində bildirdi ki, bu, İranla Qərb arasında böyük əməkdaşlığın başlanğıcıdır. Deməli, artıq İran tərəfi də buna hazırdır".

❑ **KƏNAN**

# Böyük oyunun taym-autu



**Xalid KAZIMLI**

**Regionumuzda maraqlı proseslər gedir. Başda ABŞ olmaqla, aparıcı Qərb dövlətlərinin İranla arasının düzəldiyi bir vaxtda Rusiya, eləcə də Azərbaycan dünyanın taleyini həll edən siyasi dairələrə meydan oxumaqdadır.**

İranla Qərbin arasındakı "soyuq müharibə"nin əsas səbəbi cənub qonşumuzun nüvə silahı əldə etmək istiqamətində göstərdiyi cəhdlər, ətraf dövlətlərə "islam inqilabı" ixrac etmək istəməsi idi.

ABŞ, İsrail, İngiltərə, Almaniya, Fransa kimi dövlətlər buna qarşı çıxırdılar. Arada hətta "soyuq müharibə"nin əsl qaynar və qanlı müharibəyə çevriləcəyi gözlənilirdi.

Təxminən 10 il idi ki, regionda böyük gərginlik vardı. İldə ən azı dörd dəfə nüvə proqramlarının qarşısını almaq üçün İrana zərbə endiriləcəyi güman olunurdu, bəzən konkret vaxt da göstərirdilər: "İyulun ortalarında"; "Qurban bayramından sonra"; "Ramazandan əvvəl" və s.

Bu, əsəb müharibəsiydi, böyük və qüdrətli dövlətlər İranı qorxutmaq, geriyə addım atmağa vadar etmək istəyirdilər. Ancaq İran rəhbərliyi də Qərbin bu kimi bleflərinə uymurdu, onların hara qədər qətiyyətli olacaqlarını bilirdi və geri çəkilmirdi, hədəyə hədəylə cavab verirdi, "İran xalqı son damla qanına qədər xarici aqressorla döyüşəcək", "Ölkəmizə hücum edən yadellilər peşman olacaq və məğlubiyyətə uğrayacaqlar" deyirdi.

Dünyanın əksər aparıcı politoloqları İran düyününün dəqiq raket zərbələri ilə açılacağını gözləyirdi. Ancaq bu, baş vermədi.

İndi hamı prezident Obamanı bu münaqişəni diplomatiya yolu ilə çözdüyünə görə öyür, tərifləyir, Nobel sülh mükafatını əbəs yerə almadığını bildirirlər.

Gerçəkdən də bu işdə Obamanın rolu böyükdür. Onun yerində senator Con Makkeyn kimi özü müharibə görmüş bir şəxs prezident olsaydı, yəqin ki, tərəflər öz münasibətlərini danışıqlar masası arxasında yox, poliqonlarda həll edərdilər.

Bu baxımdan bu gün İran prezidenti Həsən Ruhani ilə ABŞ prezidenti Barak Obamanın qucaqlaşmış halda karikaturasını çəkib altından Obamanın atasının adının Hüseyn olduğuna işarə edərək "Həsənlə Hüseyn barışdı" yazanlar haqlı görünürlər.

Amma bu, doğrudan da ABŞ-İran barışığımıdır? Bütün təhlükə sovuşdumu? Xeyr. Əslа.

Bu, tərəflərin müharibə həddinə çatmış gərginliyə tab gətirə bilməməsidir, böyük oyunda götürülmüş taym-autdur.

Açıqca görünür ki, İran tərəfi bu durumdan çox məmnundur və qızıldan qiymətli vaxt qazandığını düşünür. İranın xarici işlər naziri Cavad Zərifin Vyanada müvafiq anlaşma əldə ediləndən sonra çəkilmiş şəkillərindən yağan sevincindən bəlli olur ki, bu anlaşma daha çox İrana lazım imiş.

İran dünyanın 10 ən qüdrətli dövlətindən biri olmaq yolundakı proqram və layihələrindən belə asanlıqla vaz keçməyəcək, Qərbi aldatmağa çalışacaq. Bacaracaqmı, bacarmayacaqmı, indidən demək çətindir. Obamanın fikrincə, İranın nüvə silahına gedən yolu artıq kəsilib. İran rəhbərliyi isə belə görünür ki, "çıxmayan cana ümid çoxdur" deyə düşünür. İsraildə isə tamamilə başqa fikirdədirlər və bu sevdanın gələcəyinə pessimist yanaşırlar.

Belə bir dönəmdə Rusiyanın hələ də ABŞ-a, NATO-ya, Avropaya direşməsi absurd görünür. Azərbaycanın Rusiyanın səfində yer alması da anlaşılan deyil.

Yenə Rusiya ilə Qərbin ixtilafının "münaqişə tarixçəsi", ciddi səbəbləri var, bizim Qərblə davamızın adı belə yoxdur. Nəyə görə Avropa ilə düşmənçilik edirik, bəzi-para xırım-xırda tələblərə görəmi?

ABŞ-ın 50 ştatından ən kiçiyi (məsələn, Men ştatı) qədər olmayan bir ölkənin Silahlı Qüvvələrinin baş qərargah rəisinin Pentaqonla bütün əlaqələri kəsəcəyini bəyan etməsi isə absurdun zirvəsidir.

İrandan güclü, İrandan qətiyyətli, bolsərvətli, geniş resurslu dövlət deyilik, onun kimi böyük planlarımız, proqramlarımız da yoxdur, bir şələ qarğı-qamışla başımızın milçəyini güclə qoruyuruq, durub birdən-birə özümüzü Venesuela, Şimali Koreya, Kuba kimi aparıb ABŞ-la intriqaya girmək heç haramıza yaraşmır.

"Gözü çıxarılan qardaşlar"dan ibrət götürmək lazımdır.

YENİ MÜSAVAT
N 154 (6182) 16 iyul 2015

**İyulun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusun məhkəməsi başlayıb. Məhkəmənin keçiriləcəyi binanın qarşısında xeyli sayda xarici ölkə səfirlikləri və təşkilatının nümayəndələri, eləcə də ölkəmizin tanınmış simaları toplaşmışdılar.**





# Yunusların məhkəməsi başladı

## Həbsdə olan ər-arvad bir il sonra şüşə qəfəs arxasında görüşdülər; Leyla Yunus arıqlayıb, Arif Yunusun boynunda isə şiş əmələ gəlib

Proses 10:00-a təyin olunsa da, bir qədər gec başladı. Məhkəmənin kiçik zallardan birinə salınması iştirakçıların ciddi etirazına səbəb oldu. Zala xarici nümayəndələr və jurnalistlərdən əlavə, demək olar ki, heç kim keçə bilmədi.

Yunuslar şüşə arxasına salınmışdılar. Zala daxil olanda L.Yunusun xarici görkəminin dəyişdiyi, arıqladığı dərhal nəzərə çarpırdı. Bir ildir bir-birilərini görməyən Yunusların görüş səhnələri hər kəsi qəhərə boğurdu...

İlk olaraq, hakim Əfqan Hacıyev məhkəmə heyətinin tərkibini və Yunuslara qarşı irəli sürülən maddələri elan etdi. Ardınca Göyçaydan olan tərcüməçi özü barədə məlumat verdi. Leyla və Arif Yunus məhkəmə tərkibinə münasibət bildirməkdən imtina etdilər.

Ə.Hacıyev təqsirləndirilən şəxslərin kimlikləri barədə proses iştirakçılarını məlumatlandırdı. Hakim qeyd etdi ki, məhkəmənin başlaması haqqında hər iki şəxsə bildiriş göndərilib.

Daha sonra müdafiə və zərərçəkmiş tərəfin tərkibləri açıqlandı. Təqsirləndirilən şəxslər tərkiblə razı olduqlarını bildirdilər. Zərərçəkmiş Vəfa Səfərəliyevin nümayəndəsi Şöhrət Allahmanovun adı çəkiləndə zalı etiraz bürüdü. Hakim xəbərdarlıq etdi.

**Müdafiə tərəfindən ilk olaraq, A.Yunusun vəkili Əfqan Məmmədov bir sıra vəsatətlərlə çıxış etdi:** "Çıxışıma başlamazdan əvvəl xahiş edirəm ki, vəsatətlərim təmin olunsun. Çünki bu vəsatətlərin təmin olunması üçün maneələr görmürəm. İlk vəsatətim hüquqlarını müdafiə etdiyim şəxsin şüşə arxasından çıxarılıb müdafiəçisinin yanında əyləşdirilməsi ilə bağlıdır. Məhbusun şüşə arxasında mühakimə olunması Avropa Konvensiyasının maddələrinə ziddir. Bu, insan şəxsiyyətinə hörmətsizlik, şərəf və ləyaqətin alçaldılması deməkdir. Müdafiə tərəfi olaraq, məhkəmə prosesi zamanı daim məhbusla məsləhətləşə bilmirik. Leyla və Arif Yunusun saxlanıldığı şüşə arxasında stol belə yoxdur. İkinci vəsatətim həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə əlaqədardır. İşə xitam verilməsində bir problem görmürəm. Çünki heç bir cinayət tərkibi yoxdur. Arif Yunus kimi aldadıb? Sadəcə, hüquqlarını müdafiə etdiyim şəxs kiminsə hikkəsinə qurban gedib".

**L.Yunusun vəkili Ramiz Məmmədov da geniş çıxış edərək vəsatətlər qaldırdı:** "Vəsatətlərimdən biri təqsirləndirilən şəxslərin şüşə arxasında saxlanılması ilə bağlıdır. Bəzən problemlər yaranır ki, bunun üçün məhbusla məsləhətləşmək zərurəti yaranır. Ona görə də hüquqlarını qoruduğum şəxsin şüşə arxasından çıxarılmasını xahiş edirəm. Digər vəsatətim proses zamanı texniki vasitələrdən *(audo-video)* istifadə edilməsi ilə əlaqədardır. Bunu təmin etməyə ciddi əsaslar var. Üçüncü vəsatətim isə həbs qərarının dəyişdirilməsi ilə bağlıdır. Leyla xanım haqqında həbs qərarı çıxarılandan sonra onun iki dəfə həbs müddəti uzadılıb. İndiyə qədər ev dustaqlığı ilə bağlı vəsatətlər verdik. Amma rədd edildi. İttiham tərəfi Leyla xanımın qaçmasını əsas gətirir. Həbsdə olandan sonra bu əsas itir. Bizi hazırda əsas narahat edən məsələ Leyla Yunusun səhhətidir. Özü də daim səhhətindən şikayətlənir. İndiyə qədər Avropa Şurasından 5 dəfə həkim gəlib. Azərbaycan həkimlərinə inam yoxdur. Həkimin yazdığı dərmanlar Amerikadan gətirilir. Bir dərmanın qiyməti 40 min manatdır. Leyla xanımın qaraciyəri pis vəziyyətdədir. Əgər Amerikadan baha qiymətə dərmanlar gətirilirsə, deməli, vəziyyət ağırdır. Bu dərmanlar seyfdə saxlanılır. Oğurlanar deyə Leyla xanıma açar təqdim ediblər. Bütün bunlara baxmayaraq, ekspertin onun səhhəti ilə bağlı rəyi insanı üzür. Leyla Yunus indiyə qədər 6 dəfə qadın xəstəlikləri ilə bağlı əməliyyat olunub. Gözlərindən iki dəfə cərrahi əməliyyat keçirib. Hepatit S-dən də əziyyət çəkir. Bir vətəndaş olaraq, onun ölməsini istəmirəm. Belə bir nüfuz sahibi olan şəxsin həbsxanada ölməsi bizlərə başucalığı gətirməz. İstintaq artıq yekunlaşıb. Ev dustaqlığına buraxılmasına əsas var. Çünki şəxsiyyət vəsiqəsi də istintaqdadır. Zərərçəkmişin nümayəndəsi Şöhrət Allahmanovun işinə xitam verilməsini xahiş edirəm. Çünki Sülh və Demokratiya İnstitutu qeydiyyatdan keçməyib. Qeydiyyatdan keçməyən təşkilat qrant alırsa, qanunda məsuliyyət yoxdur. Bağlanan müqavilələrin zərərçəkmiş şəxslərə nə aidiyyəti var? Məhkəmənin sonlarında deyəcəklərimin bir hissəsini indi dedim. Sonra gec olar deyə. Sadəcə, faydalı olmasını istədim".



**Leyla Yunusun digər vəkili Elçin Qəmbərov şahid qismində adıçəkilən şəxslərin işinə xitam verilməsini tələb etdi:** "İşlə tanış olduğumuz zaman şahid ifadələrinin çıxarıldığını gördük. Bu ifadələrin Leyla xanıma aidiyyəti yox idi. Hamısı ona olan nifrətə görə verilən ifadələr idi. Şahidlərdən Mətanət Əzizova hazırda Çexiyada sığınacaq alıb və orada yaşayır. Onun ölkəyə qayıtması mümkün deyil. Ona görə də Sahib Məmmədov, Mətanət Əzizova və digər şahidlərin adlarının çıxarılmasını xahiş edirəm".



A.Yunusun vəkili Əfqan Məmmədov bütün vəsatətləri dəstəklədiyini, istintaqın obyektiv aparılmadığını bildirdi. O da işə xitam verilməsini tələb etdi.

Zərərçəkmişin nümayəndəsi Şöhrət Allahamanov verilən vəsatətlərin əleyhinə çıxış edərək, rədd edilməsini xahiş etdi.

**Prokuror Fərid Nağıyev vəsatətlərə münasibət bildirərək, işin məhkəmə baxışına göndərilməsini təklif etdi:** "Leyla Yunusun həbsinə əsas var. Onlara aprelin 28-də çağırış vərəqəsi verilib. Lakin həmin gün axşam 23:30-da ölkədən gedərkən saxlanılıblar. Leyla Yunusun səhhəti tam nəzarət altındadır. Rəhbəri olduğu qurum qeydiyyatdan keçmədiyinə görə o, özünü "Azərbaycan Qadınları Ön Qafqazda Sülh və Demokratiya uğrunda" qeyri-hökumət təşkilatının sədr müavini kimi təqdim edərək, hesaba yüksək məbləğdə pullar daxil edib. Ümumilikdə 23 müqavilə var. Arif Yunusun bu işlərlə əlaqəsi olmasa da, qanunsuz əməldə əlbir olub. Vəsatətlərin təmin olunmasına heç bir əsas yoxdur. İş məhkəməyə göndərilsin".

Bundan sonra prosesdə fasilə yarandı. Hakimlər qərar qəbul etmək üçün müşavirəyə getdilər.

**Bütün proses boyu susan Leyla Yunus fasilə zamanı xarici nümayəndələrə və jurnalistlərə ingilis və rus dillərində müsahibə verdi. SDİ rəhbəri işgəncələrə məruz qalmaları ilə bağlı danışdı:** "Qəbul etdiyim dərmanlardan sonra özümü pis hiss edirəm. Gecələr ağrıdan yata bilmirəm. Arif qapalı yerdə saxlanılır. Boynunun arxasında xərçəng xəstəliyi yaranıb. Hakimlər müşavirədən qayıdanda 5 dəqiqə vaxt istəyəcəm. Sözlərimi orada deyəcəm. İstintaq başa çatmamış işlə tanış oldum. Ciddi saxtakarlıqlar var idi. Qəzet məqalələrindən ittiham düzəldiblər. Biz istintaqda ifadə verməmişik. Arifə dələduzluq maddəsi bir hesabından digər hesabına pul köçürdüyünə görə irəli sürülüb. Məqsəd bizi fiziki cəhətdən məhv etməkdir. Həbsxanada işgəncələrə məruz qalmışam. Böyrək və baş nahiyəmdən zərbələr almışam. Keçən il 23 sentyabrda mənə işgəncə verildi. Sonuncu dəfə ötən ayın 20-də işgəncələrə məruz qaldım. Mayor Yaqubov gicgahımdan elə vurdu ki, sol gözüm görmür".

Bundan sonra Leyla Yunusun danışmasına məhkəmə nəzarətçiləri mane oldular. Leyla və Arif Yunus məhkəmə zalından çıxarıldı.

**Yarım saatlıq müşavirdən qayıdan hakim qərarı açıqladı. Leyla Yunus qərar açıqlanarkən öz təpkisini göstərdi:** "Siz qanuna hörmət etmirsiniz. Mənə çıxışım üçün imkan vermədiniz. Bu, mənim hüququmdur. Çünki vəsatətlərə münasibətim olmalı idi. Amma imkan vermədiniz. Bu o deməkdir ki, sizin məhkəmə anlayışınız yoxdur".

Hakim çıxış edəndə məlum oldu ki, vəsatətlərin heç biri təmin olunmayıb və iş məhkəmə baxışına qəbul edilib.

Proses 27 iyul saat 10:00-a təxirə salındı.

**Prosesdən sonra L.Yunusun vəkili E.Qəmbərov mətbuata açıqlama verdi:** "Bir daha əmin olduq ki, işin aparılması obyektiv olmayacaq. Vəsatətlərimizin heç biri təmin olunmadı. Birinci prosesdən məhkəməyə inamımız qalmadı. Leyla xanımın işgəncələrə məruz qalması halları biz tərəfdən dəfələrlə qaldırılıb. Guya ki, bununla bağlı araşdırma aparılırdı. Amma bu günə qədər nəticəsi yoxdur. Leyla xanımın xəstəliyi elə ağırdır ki, türmə şəraitində müalicəsi mümkün deyil. Qanun tələb edir ki, müttəhimə söz verilsin. Amma hakim əksini etdi..."

**Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Fazil Məmmədovun yaxın ətrafı təlaşda - həbslər ola bilər

## Prezidentin sərt tənqidindən sonra vergilər nazirinin icra başçısı olan adamları özlərini itiriblər; Xaləddin İsgəndərov "Fazili işdən çıxarsalar, bəlkə də məni tutdular" deyib...

**Prezident İlham Əliyevin iyulun 13-də Nazirlər Kabinetinin iclasında Vergilər Nazirliyini sərt tənqid etməsi, sahibkarlara "haqq qoyulması" və "krışalıq" edilməsi ilə bağlı söylədikləri Fazil Məmmədov klanını ciddi təlaşlandırıb. F.Məmmədov ona vergilərin yığılması ilə bağlı verilən səlahiyyətlərdən sui-istifadə edərək hakimiyyətdəki ciddi fiqurların da mənafeyinə toxunub ki, "qırmızı xətti" keçməsi onu ciddi hədəfə çıxarıb. İddialara görə, özünü tezliklə baş nazir kreslosunda görmək arzusunda olan F.Məmmədov vergi yoxlamalarından özünün biznes imperiyasını və iqtisadi qüdrəti gücləndirmək məqsədi güdüb ki, bu da iqtidar dairələrində ciddi narazılıq yaradıb.**

F.Məmmədovun klanını narahat edən ən ciddi məqamlardan biri isə prezidentin sahibkarlara şəxsən ona müraciət etmələrini deməsi və "bunu edən, sadəcə olaraq, pul qazanmır, dövlətə xəyanət edir" sözləridir.

Xəbərlərə görə, F. Məmmədovun icra başçısı təyin etdirdiyi kadrlar, ümumiyyətlə, özlərini itiriblər. Vergilər Nazirliyində işləyərkən "sahibkarların qənimi" imicini qazanmış Alimpaşa Məmmədov F.Məmmədovun birbaşa dəstəyi ilə Şəmkirə icra başçısı təyin edildikdən sonra bu rayondan Prezident Administrasiyasına göndərilən şikayətlərin sayı artıb. A.Məmmədov rayonda xüsusilə sahibkarlara göz açmağa imkan vermir. Onun özbaşınalıqları haqda son vaxtlar KİV-lərdə xeyli şikayət xarakterli materiallar dərc edilib. İddialara görə, özünü "Polad Ələmdar" kimi aparan icra başçısı prezidentin çıxışından sonra yumşalıb, son iki gündə camaat arasına çıxıb, onların dərd-səri ilə maraqlanıb. Rayondakı mənbəmiz deyib ki, xüsusilə F.Məmmədovun "dobrosu" ilə sahibkarları incidən icra başçısına "sizin də "xodunuzu" alan tapıldı", deyiblər. Bir neçə sahibkar daha qanunsuz vergi yoxlamalarına imkan verməyəcəkləri və icra başçısına "haqq" göndərməyəcəkləri barədə razılığa da gəliblər. Rayonda tezliklə F.Məmmədovun və onun adamlarının vəzifədən çıxarılacağı barədə də xəbərlər yayılıb.

Prezidentin çıxışından sonra təlaşda olan daha bir icra başçısı isə F.Məmmədovun qaynı Xaləddin İsgəndərovdur. Binəqədidəki yanan binanın tüstüsü "bacasından çıxmamış" prezidentin sərt tənqidi ona daha bir ağır zərbə olub. Yaxın adamlarını *(onların əksəriyyəti yaxın qohumları və pul yığanlarıdır)* yanına toplayan X. İsgəndərov nazirin vəziyyətinin "xarab" olduğunu deyib. X. İsgəndərov sahibkarlardan və digər obyektlərdən pul yığımının "müvəqqəti dayandırılmasına" göstəriş verib. Həmçinin birbaşa onun göstərişi ilə tikilən qanunsuz tikintilərin dayandırılmasını istəyib. O yaxın ətrafına deyib ki, "Fazili işdən çıxarsalar, bəlkə də məni tutdular..."



Fazil Məmmədov



Xaləddin İsgəndərov

Redaksiyamıza bu xəbəri verən mənbə iddia edib ki, mayın 19-da yanan bina ilə bağlı istintaqa çağırılıb bir neçə dəfə dindirilən X.İsgəndərovun əleyhinə ifadə var. Məhz onun ərazisində baş verən məşum hadisə Avropa Oyunları ərəfəsində hakimiyyətin və bütövlükdə ölkənin imicinə ciddi zərbə oldu. Ona qarşı ifadə verənlərdən biri yanğın işi ilə bağlı hazırda həbsdədir. "O, hətta Xaləddin İsgəndərovun başqa qanunsuz əməlləri barədə də istintaqa danışacağı ilə hədələyib" deyə, mənbəmiz bildirib.

Yaranmış vəziyyət Xaləddin İsgəndərovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı olmaq xəyallarını da suya düşürmüş oldu.

Xəbərlər belə deməyə əsas verir ki, F.Məmmədovla və onun yaxın ətrafı ilə bağlı proses gedir və onların təlaşı üçün səbəb ciddidir...

❑ **"Yeni Müsavat"**

# Prezident Beynəlxalq Bankla bağlı fərman verdi

## Banka məxsus aktivlər mərhələli şəkildə bankın balansından çıxarılaraq dövlətə məxsus "Aqrarkredit" QSC-nin idarəetməsinə veriləcək; dövlətə məxsus səhmlərin özəlləşdirilməsi altı ay sonra başlaya bilər

**Prezident İlham Əliyev "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı fərman imzalayıb.**

Fərmanda son illər bankın idarə edilməsində və investisiya-kredit siyasətində nöqsanlara yol verildiyi qeyd olunub: "O cümlədən səmərəsi aşağı olan riskli investisiya layihələrinin maliyyələşdirilməsi bankın maliyyə vəziyyətinin pisləşməsinə, problemli aktivlərinin artmasına və likvidliyinin daralmasına səbəb olub. Ona görə də yaranmış vəziyyətin aradan qaldırılması, bankın maliyyə mövqeyinin bərpası və dayanıqlığının təmin edilməsi üçün problemli aktivlərin bankın idarəetməsindən çıxarılaraq ixtisaslaşmış quruma verilməsi zərurəti yaranıb".

Dövlət başçısı qərara alıb ki, Maliyyə Nazirliyi və Mərkəzi Bank on beş gün müddətində "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə məxsus problemli aktivləri müəyyən etsin və həmin aktivlərin mərhələli şəkildə bankın balansından çıxarılaraq dövlətə məxsus "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının (bundan sonra - "Aqrarkredit" QSC) idarəetməsinə verilməsi üçün tədbirlər görsün.



### Fərmanda ən mühüm məqamlardan biri kreditlərin verilməsi zamanı nöqsanlara yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı tapşırıqdır

**"Aqrarkredit" QSC bu fərmanın 1-ci hissəsinə uyğun olaraq alınmış aktivləri idarə edərkən aşağıdakı vəzifələri yerinə yetirir:**

- "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən alınacaq aktivlər üzrə əsas borclar (kreditlər) və faizlər, borcun təminatı olan girov (ipoteka), zaminlik üzrə tələb hüquqlarını qanunvericiliyə əsasən əldə etmək və həyata keçirmək;
- ödəmə vaxtı keçmiş kredit borclarının (faizlərin) qaytarılması və borcalanlar tərəfindən müqavilə öhdəliklərinin yerinə yetirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər (məhkəmədə iddia qaldırmaq, tələbi girova yönəltmək və s.) görmək;
- tələb girova (ipotekaya) yönəldildiyi halda, girov (ipoteka) qoyulmuş əmlakın idarə edilməsini həyata keçirmək, həmin əmlakın dövlət əmlakına aid edilməsi barədə təkliflər vermək və ya ixtisaslaşmış təşkilatlar tərəfindən açıq hərraclarda satışını təşkil etmək, əldə olunan vəsaitin borc öhdəliklərindən irəli gələn tələblərin ödənilməsinə yönəldilməsini təmin etmək.

Prezident "Azərbaycan Beynəlxalq Bankı" ASC-də dövlətə məxsus səhmlərin imkan verdiyi dərəcədə bankın restrukturlaşdırılması, maliyyə durumunun sağlamlaşdırılması və kapitallaşması, fəaliyyətinin səmərəliliyinin artırılması üçün İdarə Heyətinin tərkibinin yenidən formalaşdırılmasını tapşırıb. Bankın kredit, borclanma, kadr siyasətinin təkmilləşdirilməsi, restrukturizasiya və sağlamlaşdırma tədbirləri başa çatdıqdan sonra isə Əmlak Məsələləri Dövlət Komitəsi və Mərkəzi Bankının rəyləri nəzərə alınmaqla, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi üzrə tədbirlər planı altı ay müddətində prezidentə təqdim edilməlidir.

Prezident o cümlədən "Azərbaycan Beynəlxalq Bankı" ASC tərəfindən kreditlərin verilməsi zamanı bank və mülki qanunvericiliyin tələblərinə riayət edilməsi məsələlərini araşdırmaq, aşkar olunmuş nöqsanlara yol vermiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verilməsi və onların məsuliyyətə cəlb olunması üçün hüquq-mühafizə orqanları ilə birlikdə tədbirlər görməyi tapşırıb.

# Vaqif Mustafayevin Sevil Əliyeva revanşı

## "Space" rəhbəri ona olan hücumları müsahibə yolu ilə kompensasiya edir?




**Mərhum prezident Heydər Əliyevin qızı, dövlət başçısı İlham Əliyevin bacısı, tanınmış bəstəkar və ictimai xadim Sevil Əliyeva "Space" telekanalına müsahibə verib. Hazırda Londonda yaşayan Sevil Əliyeva telekanalın prezidenti Vaqif Mustafayevə verdiyi müsahibədə atası və qardaşı haqda xatirələrini bölüşüb.**

Siyasi və media dairələrində isə bu müsahibə birmənalı qarşılanmayıb. Məlumdur ki, S.Əliyeva, ümumiyyətlə, yerli telekanallara, saytlara müsahibə vermir. Onu ancaq sahibi olduğu "Space" kanalının efirində görmək mümkündür. Bu müsahibədə ən maraqlı cəhət isə onun "Space" üçün ən çətin ərəfədə efirə getməsidir. "Yeni Müsavat" son bir ayda sözügedən kanalın ətrafında gedən proseslərlə bağlı bir neçə dəfə yazıb. Xüsusən canlı yayımlanan verilişlərdə aparıcıların söylədiyi sözlər, davranışları ictimaiyyətdə ciddi müzakirə və etiraz mövzusuna çevrilib. Bununla bağlı nəinki tamaşaçılardan, eyni zamanda Milli Teleradio Şurasından da təpkilər gəlib. Sonuncu kanala xəbərdarlıq edib, rəhbərlik isə qınağa tuş gələn verilişləri efirdən çıxarıb, bəzilərinin aparıcısını dəyişdirib. Bununla da vəziyyəti kompensasiya etməyə çalışıb.

Amma hiss olunur ki, kanala qarşı qəzəb yekunlaşmır. Media ekspertləri dəfələrlə bildiriblər ki, "Space" kanalının son zamanlar hücuma məruz qalması onun "dayaqsız" olması ilə bağlıdır. Belə ki, sahibinin - Sevil Əliyevanın ölkədən kənarda olması, burdakı klanlararası savaşlarda zəif mövqeləri onu zaman-zaman hücum mərkəzinə çevirib. İndiki ərəfədə isə sözügedən müsahibə həm kanalın rəqiblərinə, həm də tez-tez ona göz ağardan "yuxarılar"a ciddi mesajdır.

Xüsusən müsahibədə S.Əliyevanın dövlət başçısı barədə xoş sözləri, onunla bağlı uşaqlıq xatirələrini paylaşması, atası Heydər Əliyev barədə söylədikləri diqqət çəkirdi. Ekspertlər hesab edir ki, sözügedən müsahibə eyni zamanda həm S.Əliyeva, həm də V.Mustafayev üçün ciddi revanşın göstəricisidir. Bundan sonra telekanala qarşı "yuxarı"larda münasibətin dəyişəcəyi, təzyiqlərin azalacağı güman edilir.

❑ **SELCAN**

Yeni MÜSAVAT
N 154 (6182) 16 iyul 2015

# AZAL-da qiymət müəmması

## Şirkətlə bağlı narazılıq və kampaniya davam edir, AZAL rəsmisi də biletlərin ucuzlaşdırılması ilə bağlı məsələnin müzakirə olunduğunu bildirir...

**Yay aylarında daha çox tənqidə məruz qalan "Azərbaycan Hava Yolları" QSC (AZAL), nəhayət, dövlət başçısının da hədəfinə tuş gəlib. Prezident İlham Əliyevin AZAL-la bağlı tənqidi çıxışından sonra uçuş qiymətlərinin ucuzlaşacağına ümidlər yaranıb. Qeyd edək ki, dövlət başçısı aviabiletlərin qiymətini aşağı salmağı tapşırıb. Ekspertlər də AZAL-ın qiymət artımının iqtisadi əsası olmadığını vurğulayır, bu məsələ ictimaiyyətdə geniş narazılıq və narahatlıq doğurub. Həmçinin bildirilir ki, ucuz xidmət təklif edən aviaşirkətlər Azərbaycana buraxılmır. Halbuki Avropada həm komfortlu aviaşirkətlər var, həm də ucuz uçuş təklif edənlər.**



Dövlət başçısının tənqidindən sonra sosial şəbəkədə AZAL-ın boykot çağırışları səslənib. Bir qrup facebook istifadəçisi AZAL-da qiymətlərin yüksək olmasından şikayətlənərək kampaniyaya başlayıblar. İstifadəçilər "AZAL-ın inhisarçılığına və soyğunçuluğuna son qoyaq" adı altında qrup yaradıblar. Qrup haqqında məlumatda deyilir ki, üzvlər yüksək bilet qiymətlərinə etiraz olaraq alternativ hava yollarının qiymətlərini, kampaniyalarını yayacaq: "AZAL-dan bilet almayaq, bilə-bilə aldanmayaq!",- deyə qrup üzvləri bildirirlər. Facebookda həmçinin qiymətin azalmasına işarə olaraq "#azal" haştaqı da yaradılıb.

**Ekspert Natiq Cəfərli AzadlıqRadiosuna müsahibəsində bildirib ki, dövlət başçısının inzibati yolla müdaxiləsi müvəqqəti nəticə verəcək, AZAL qiymətləri sala bilər, amma bir müddət sonra yenidən qalxacaq. Natiq Cəfərli hökumətə çıxış yolları da təklif edir:** "Hava limanı AZAL-dan ayrılmalı, başqa bir şirkətin istifadəsinə verilməlidir. Yaxşı olar ki, Tbilisidə olduğu kimi, Türkiyə şirkətinə icarəyə verilsin. AZAL təbii inhisarçı kimi rəqabət qanunlarını pozduğu üçün azı 3 yerə parçalanmalı, idarəetməsi dəyişdirilməlidir, digər xarici aviaşirkətlərə bazara giriş izni sadələşdirilməli, AZAL-ın buna təsir imkanları sıfırlanmalıdır".

**AZAL-ın sabiq prezidenti Ədalət Əliyev isə İ.Əliyevin AZAL-da bilet qiymətlərinin yüksək olması ilə bağlı tənqidlərinə münasibət bildirərək, bunu yerində olan çıxış kimi qiymətləndirib. Onun sözlərinə görə, ölkə başçısının AZAL-la bağlı son çıxışı çox doğru və yerində edilən çıxış idi:** "Bir halda ki, AZAL təyyarələri dövlətin yardımları ilə alır, yanacaq isə yerli istehsaldır, o zaman qiymətlər də daha ucuz olmalıdır. Şəxsən mənim üçün AZAL-ın bu qiymətləri müəmmalıdır".

**Ə.Əliyev AZAL-ın uçuş qiymətlərini təcili olaraq aşağı salmasını vacib hesab edir:** "Əgər AZAL qiymətləri aşağı salsa, bu, ölkəyə gələn turistlərin sayında da müsbət dəyişikliyə gətirib çıxaracaq. Hazırda AZAL-ın tətbiq etdiyi qiymətlər dünyanın heç bir aviaşirkətində mövcud deyil. Axı hər bir şirkətin öz rəqabət və biznes siyasəti olmalıdır. Dünyada rəqabət aparan hər bir şirkət çalışır ki, qiymətləri digərindən aşağı salsın və daha çox müştəri qazansın. AZAL isə qiymətləri qaldırmaqla müştəriləri özündən qaçırır. Hazırda AZAL-ın qiymət siyasəti çox dözülməz hal alıb. Normalda bu, belə olmamalı idi".

**Ə.Əliyev qeyd edib ki, AZAL-a görə Azərbaycanda digər aviaşirkətlərin də qiymətləri başqa ölkələrlə müqayisədə yüksəkdir:** "Bilirsiniz, AZAL elə bir siyasət aparmalıdır ki, o həm sosialyönlü, həm də iqtisadi səmərəli olsun, əhalidə narazılıq yaratmasın. AZAL-ın peşəkar təsərrüfatçılıq siyasəti olmalıdır. Bunun sayəsində isə şirkət həm öz biznes maraqlarını, həm də əhalinin sosial maraqlarını qorumalıdır. Misal üçün deyim ki, bu gün Moskva şəhərinə AZAL-ın gediş-gəliş uçuş qiyməti maksimum 300 dollar olmalıdır. Çünki digər tanınmış aviaşirkətlərdə qiymətlər bundan yüksək deyil".

**Ə.Əliyev son vaxtlar AZAL-ın israfçılığa da yol verdiyini bildirib:** "AZAL dövlətdən kreditlər alır, həmin kreditləri ödəmək üçün isə məcbur olub qiymətləri qaldırır. Əgər doğrudan da belə olubsa, o zaman bu məsələnin də səbəbləri araşdırılmalıdır".

Bundan sonra isə iyulun 15-də AZAL-ın qiymətləri azaltdığı bildirilib. Turizm şirkətlərindən aznews.az-a daxil olan məlumata görə, AZAL-da qiymətlərin bahalığı ilə bağlı məlum tənqidlərdən sonra şirkət qiymətləri aşağı salıb. Belə ki, Azərbaycanda yerləşən turizm şirkətlərinə AZAL-dan bununla bağlı müvafiq məktub göndərilib. Məktubda Bakı-İstanbul reysinin avabiletlərinin qiymətinin 90 manat olması ilə bağlı göstəriş yer alıb. Qərarın nə vaxt qüvvəyə minəcəyi isə hələ ki dəqiq deyil.

**AZAL isə mətbuatda yayılmış Bakı-İstanbul aviareysinin qiymətinin 90 manata endirilməsi ilə bağlı xəbərə münasibət bildirib və təkzib edib. Fins.az-a açıqlama verən AZAL-ın vitse-prezident Sabir İlyasov bildirib ki, bu məsələdə hələ ki konkret yenilik yoxdur:** "Hazırda biletlərin ucuzlaşdırılması ilə bağlı məsələ müzakirə olunur". "Qafqazinfo" isə bildirib ki, AZAL rəsmi olaraq bütün istiqamətlər üzrə kəskin qiymət endirimləri etməyə hazırlaşır. Qurumdan verilən məlumata görə, hazırda prezidentin göstərişindən sonra bütün müvafiq dövlət qurumlarının iştirakı ilə AZAL-da başlayan təhlil-yoxlama-müqayisə işləri başa çatmaq üzrədir. Bir neçə saatdan sonra AZAL öz saytında Azərbaycandan bütün istiqamətlər üzrə qiymətlərin kəskin şəkildə ucuzlaşdığını elan edəcək və yeni qiymət cədvəli əhaliyə təqdim olunacaq. Məlumat üçün bildirək ki, artıq AZAL-ın saytının da fəaliyyəti müvəqqəti dayandırılıb və sayt yeni qiymətlərlə işə düşəcək. AZAL-dan o da bildirilib ki, qarşıdakı günlər üçün alınmış biletlər qaytarılıb yeni qiymətli biletlərlə dəyişdirilə bilər. Hazırda aviakassalar da fəaliyyətlərini müvəqqəti dayandırıb və yeni qiymətlərin açıqlanmasını gözləyirlər.

❑ RÖYA

# "İranın bazara girməsi Azərbaycanın önəmini zəiflədir"

## Natiq Cəfərli: "Hətta hökuməti təhlükəli addımlar atmağa sövq edir"

**Neftin dünya bazarında qiymətləri ucuzlaşmağa başlayıb. Ekspertlər bildirirlər ki, neftin ucuzlaşması bir sıra beynəlxalq faktorlarla bağlıdır. Yaxın müddət üçün isə neftin bahalaşması o qədər də gözlənilən deyil. Ekspert Natiq Cəfərlinin sözlərinə görə, İranla bağlı sanksiyaların götürülməsi neft bazarına təsir edən güclü amil olacaq: "İran qaz ehtiyatlarına görə dünyada 2-ci yerdədir.**



2014-cü ilin məlumatlarına görə, 166 milyard kubmetr qaz istehsal edib, yaxın 3 ildə qaz istehsalı 290 milyard kubmetrə, 2020-ci ildə isə 350 milyarda çatacaq. Neft ehtiyatlarına görə isə dünyada 4-cü yerdədir, dünyada dəqiq təsdiq olunmuş neft ehtiyatlarının 11 faizə yaxını bu ölkədədir. Sanksiyalara baxmayaraq, İran gündəlik 4 milyon barelə qədər neft hasil edirdi, bunun yarısı ixrac olunurdu. Sanksiyalardan sonra yeni texnologiyaların ölkəyə gəlməsini nəzərə alsaq, yaxın 3 ildə İranda hasilat 8 milyon barelə qədər arta və gündəlik ixracatı 4,5 milyon barelə çata bilər. İran kifayət qədər böyük, "ac", yenilənməyə açıq olan və varlanmaq perspektivi güclü olan bazardır. Son 36 ildə özlərinə məxsus iqtisadi model qurublar, iqtisadiyyat kifayət qədər liberaldır, bazar qanunları ilə işləyir, rəqabətli mühit var, amma texnoloji baxımdan geridə qalıblar. Sanksiyaların götürülməsi İrana yeni texnologiyaların gəlməsini saxlayacaq ki, bu da iqtisadiyyatı modernləşdirməyə imkan verəcək. Sanksiyalar altında olmaqlarına baxmayaraq İranın gəlirlərinin cəmi 45 faizi neft-qazdan asılıdır, bu ölkə özünə lazım olan çox malları istehsal edə bilir, kənd təsərrüfatı çox güclüdür".

**Ekspertin sözlərinə görə, Rusiya İrana enerji alanında rəqib kimi baxır, İranın bazara girməsi neft və qaz sahəsində Rusiyaya ciddi mane olacaq. Üstəlik, Səudiyyə İrana həm enerji rəqibi, həm də ideoloji rəqib kimi baxır, İrandan çəkinir, özünün əsas düşməni məhz İranı sayır. İsrail isə bütün kimliyini müsəlman, əsas da İran təhlükəsi üzərində qurub, İranın açılması İsrailin kimlik quruculuğunu, hekayəsini dağıdır:** "Anlaşmanın ən böyük təsirlərindən biri məhz Azərbaycana olacaq. Söhbət tək neft-qaz bazarında uzun zaman ucuzluğun olmağından getmir, İranın neft-qaz ehtiyatları bizimlə müqayisəolunmaz dərəcədə çoxdur. Azərbaycan gündə dünya bazarına 500 min barel neft çıxarır, İran yaxın zamanda 5 milyon barel çıxaracaq. Azərbaycan 2020-də Avropaya cəmi 10 milyard kubmetr qaz satmağı planlayır, İran o zamana qədər Avropaya 90-100 milyard qaz çıxarda biləcək. İranın bazara girməsi Azərbaycanın geosiyasi və coğrafi önəmini ciddi zəiflədir, hətta hökuməti təhlükəli addımlar atmağa sövq edir. Bunun nümunəsi kimi Səudiyyə ilə yaxınlaşmağı göstərmək olar. Azərbaycan hökuməti Qərblə danışıqlarda alət kimi enerji şantajından istifadə etməyə çalışırdı, indi bu arqument də heç oldu. Amma ağıllı hökumət olsa, normal sistem qura bilsək, İran anlaşması bizə ciddi fürsətlər pəncərəsi də aça bilər. Azərbaycan İran bazarına girmək istəyən Qərb və Şərq şirkətləri üçün baza, yol göstərən rolunu oynaya bilər. Bizim şirkətlər İranı gözləyən tikinti bumunda iştirak edə bilərlər. İranda bizim vətəndaşlar üçün iş yerləri yarana bilər və bir müddət sonra azərbaycanlılar pul qazanmaq üçün Rusiyaya deyil, İrana üz tutacaqlar.

Bu yazdıqlarımın riskləri də var, sadəcə, normal, çağdaş ölkə qurmaq lazımdır ki, bu riskləri önləyə biləək. Təəssüf ki, hələ hökumət olub-bitənləri anlaya, qavraya, analiz edə bilmir. Bir ovuc neftlə, bir qarın qazla dünyanı şantaj edə biləcəyini düşünür. Zaman itiririk, bu açılımdan ən çox Ermənistan istifadə edəcək, bununla rəqabət aparmaq üçün ağıllı siyasi komanda qurmağın vaxtı çatıb".

Qeyd edək ki, ekspertlərin fikrincə, qarşıdan daha böhranlı bir vəziyyət gəlir. Bildirilir ki, bu mürəkkəb iqtisadi şərait müsbət heç nə vəd etmir. Yəni neftin qiymətinin artması ilə bağlı ümidlər əsassızdır. Əksər ekspertlər neftin qarşıdakı aylarda da ucuzlaşacağını proqnozlaşdırırlar. Azərbaycanın neft gəlirlərinin isə 50 faizdən çox azalacağı bildirilir.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 154 (6182) 16 iyul 2015

**"İqtidar tribunası"**

**Yeni Azərbaycan Partiyasının (YAP) qərargahı. Tam səssizlik. Giriş qapısındakı polisdən başqa kimsə gözə görünmür. Üçüncü qata qalxarkən də yalnız bir nəfərlə rastlaşıram. Seçkilər ərəfəsində hakim partiyada müşahidə olunan bu səssizlik bir az da təəccüb doğurur. Elə YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzovla söhbətimizdə də öncə bu barədə soruşuram.**



# "Cavabdehlər öz cəzasına çatacaq"

## Siyavuş Novruzov: "Bu parlament seçkiləri əvvəlkilərdən daha gərgin rəqabət əsasında keçəcək"

***- Siyavuş bəy, qərargahda sakitlikdir, az qala belə təsəvvür yaranır ki, sizdən başqa işləyən yoxdur. Deyəsən, partiyanın bütün işləri sizin üzərinizdədir...***

- Yox. Bizdə əsas məsələ parlament seçkiləridir. Digər seçkilərdən fərqli olaraq parlament seçkilərində əsas güc mərkəzi yerlərdədir. Yəni strategiya, proqram müəyyənləşir, onun detallarının yerinə yetirilməsi yerli təşkilatlarımızın üzərinə düşür. Düzdür, MSK da seçici siyahısını dəqiqləşdirir. Amma onun dəqiqləşdirmə forması başqadır. Bizdə isə siyahı tamam başqa formada dəqiqləşdirmə aparılır. Hər il biz bu siyahı ilə məşğul oluruq. Dünyasını dəyişən, 18 yaşına çatan, hərbi xidmətə gedən, qayıdan var, yaşayış yerini dəyişənlər var.

***- Müxalif dünyagörüşlü şəxslər bu yerdə deyə bilər ki, onsuz da seçkinin taleyi Bakıda həll olunursa, razılıq alan şəxs mandat qazanırsa, onda bu qədər əziyyətlərin mənası nədir?***

- Elə deyil. Hər bir seçki üçün işləmək lazımdır. Mən 20 ildən artıqdır bu işlə məşğulam. Həm rəqiblərin atdığı addımları, səhv cəhətlərini görürəm, həmçinin hər bir seçkinin özünün strategiyası olmalıdır və hər dairə üzrə seçkinin tədqiqatı və müzakirəsi olmalıdır. Bu olmadan seçki olmaz. Sonuncu dəfə seçki elan olunmuşdu, müxalifət hələ namizəd tapa bilmirdi, gah Rüstəm İbrahimbəyovun dalınca gəzirdi, gah başqa namizəd axtarırdılar. Seçkinin 15 günü gedəndən sonra müəyyən etdilər ki, Cəmil Həsənli namizəd olsun, imzatoplama dövrünün başa çatmasına 7 gün qalmış imza topladılar. Bunu dünyanın harasında danışsan, gülüşlə qarşılanar. Baxmayaraq ki, ədalətsizcəsinə başqa rəylər verirlər. Amma seçki texnologiyasını bilən təsdiqləyər ki, bir namizəd istənilən dairədən ən geci 7 ay qabaqcadan namizəd olub-olmayacağını müəyyənləşdirə bilmirsə, orda heç bir nəticə əldə edə bilməz.

***- Amma bu gün hətta əksər YAP-çı deputatlar da seçkiyə gedib-getməyəcəyini dəqiq bilmirlər. Çəkingənlik nə ilə bağlıdır?***

- Çəkingənlik yoxdur. Mövcud dairələrdən bizim deputatlar fəaliyyət göstərir, onların dairəsi bəllidir. YAP-ın 70-dən artıq namizədi parlamentdə təmsil olunurdu, indi bizim 5 dairəmiz boş qalıb. Hər hansı zərurət yaranarsa, digər təşkilatdan hansısa namizəd irəli sürülərsə, avtomatik şəkildə yerdəyişmələr aparıla bilər, bu, bizim seçki texnologiyamızdır. Yəni bizim 72 mandat olub, həmin namizədlər bu gün də var və fəaliyyətdə olan deputatlardır.

**"AXCP sədri partiya funksiyası ilə məşğul olmaq əvəzinə, "Azadlıq" qəzetində müxbirliklə məşğuldur"**

***- O deputatlar yenə seçkiyə gedəcəklərmi?***

- Bu, partiyanın qərarı ilə bağlı olacaq. Digər yerlərlə bağlı isə partiya götür-qoy edəcək. Partiyanın 650 mindən artıq üzvü var, onların arasında da seçkilərdə iştirak etmək istəyini bildirənlər var. O cümlədən biz rayon təşkilatları ilə də söhbətlər aparırıq ki, məsələn, o dairədən kimin şansı daha çoxdur. Təbii ki, istəyən çoxdur və hər bir insanın seçib-seçilmək hüququ var.

***- Heç sizə zəng edib siyahıya adını saldırmaq istəyənlər olurmu?***

- Zəng də olur, gələn də olur. İndi 125 yerdir, amma minlərlə insan seçilmək istəyir. Elə seçim aparılmalıdır ki, həm ədalətli, həm keçərli olsun, həm də partiya tərəfindən qəbul olunsun. Təbii ki, proses çətindir. Bizim keçmişdə seçilmiş millət vəkillərimiz olub, amma deputat olmadığı dövrdə partiya həyatında çox aktiv iştirak ediblər. Yenidən seçilmək arzu-istəklərini bildirənlər var. Xaricdə yüksək təhsil almış, uzun müddət partiya sıralarında fəaliyyət göstərən gənclərimiz də var. Amma bunlar toplanılır, partiya rəhbərliyi müzakirə edib son qərarını verəcək.

***- YAP-ın ilkin siyahısına düşmək istəyənlər çoxdurmu?***

- Çoxdur, həddindən artıq çoxdur. 125 yerdir və hər bir insanın arzu-istəyidir mandat sahibi olsun. Milli Məclisin üzvü olmaq çox şərəfli vəzifədir, bu da çox adamın arzusudur. Amma siyahı avqustun axırlarında elan olunacaq, partiya rəhbərliyinin qərarı ilə.

***- Seçkilərdə yaş senzi, yaxud rektor-biznesmen deputatlarla bağlı qadağa olacaqmı?***

- Bəzən yazırlar bu dəfə yaşlılar seçkiyə getməyəcək, rektor, ya digərləri mandatsız qalacaq, bunlar hamısı insanları çaşdırmaqdır. İlk növbədə seçki adamın yaşından, çəkisindən, boyundan asılı deyil. Bu, seçkidir, əsas məsələ seçicinin etimadıdır. Elə yer var ki, orda yaşlı adamın olması daha məqsədəuyğundur, seçici ona daha çox etimad edir. Elə yer var yeni təfəkkürə, yeni baxışlara ehtiyac var. Biz bu tədqiqatlarımızı bir ilə yaxındır aparırıq. Bələdiyyə seçkilərində 30-35 faiz yeni nəslin nümayəndələri təmsil olundu, vaxtilə bu, 4 faiz idi.

***- Parlamentdə gənclərin nisbəti necədir?***

- Bu gün 4 nəfərdir. Bu da normal haldır. Parlament seçkilərində iştirak yaşı 25-dir. 30 yaşına qədər insan cəmiyyətdə tanınmalı, özünü göstərməlidir. Bu, təyinatlı vəzifə deyil ki, gənclərin faizi artırılsın. Məsələn, ABŞ Konqresində aşağı yaş senzi 35-dir, o vaxta qədər ictimai-siyasi həyatda çalışmalı, işləməli, tanınmalıdır ki, ora gələndə yetkin insan olsun.

***- Müxalifətin şansını necə dəyərləndirirsiniz?***

- Azərbaycanda fəaliyyət göstərən 50-yə yaxın partiya var, onların hər biri seçkidə iştirak qərarını verib. Təbii ki, 3 faizlik baryeri aşan partiya dövlət büdcəsindən maliyyələşir. Bu baxımdan siyasi partiyalar seçkilərdə iştirakda maraqlıdırlar. Çalışacaqlar ki, daha çox namizədlə iştirak edib 3 faizlik baryeri aşsınlar və dövlət büdcəsindən maliyyələşsinlər. Odur ki, hesab edirəm bu parlament seçkiləri əvvəlkilərdən daha gərgin rəqabət əsasında keçəcək.

**"Bəzən yazırlar bu dəfə yaşlılar seçkiyə getməyəcək, rektor, ya digərləri mandatsız qalacaq, bunlar hamısı..."**

***- Prezidentin sonuncu müşavirədə qiymətlər, məmur özbaşınalığı və digər məsələlərlə bağlı çıxışından sonra nələr gözlənilir?***



**"Elə məsələlər qoymalısan ki, nazir telefonuna cavab versin"**

- Öncə deyim ki, müşavirədə ölkənin daxili və xarici siyasəti, həm Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq təşkilatların Azərbaycana qarşı münasibəti və digər məsələlərlə bağlı hərtərəfli, geniş müzakirələr oldu. Cənab prezident hər bir azərbaycanlının düşündüyü, qəlbindən keçən, iki nəfərin avtobusda bir-biri ilə müzakirə etdiyi, yaxud iki biznesmenin bir-biri ilə gileyləndiyi bütün məsələləri detalları və xırdalıqları ilə qeyd etdi, çıxış yollarını, aidiyyəti qurumların bu işlərlə necə məşğul olmasını ortaya qoydu. Dünyada köşə yazıları çox vacib yazılardır, Türkiyədə və Avropada köşə yazarları qəzetin aparıcı qüvvəsi sayılır. Amma bəzən görürsən siyasi partiya rəhbərləri də partiya funksiyasını kənara qoyub köşə yazıları ilə məşğul olur. Xüsusilə AXCP sədri gecə-gündüz feysbukda yazmaqla məşğuldur. İndi aydındır, bu, onun xüsusiyyətindən irəli gəlir. Çünki diplomunu alanda onun ilk təyinatı "Azadlıq" qəzetində olub. Adətən yaxşı hüquqşünasları başqa sahələrə göndərirlər...İndi də keçmiş işinə qayıdır. Partiya funksiyası ilə məşğul olmaq əvəzinə, köşə yazılarında olmazın yalan, iftiralar yayır, ya da "Azadlıq" qəzetində müxbirliklə məşğuldur. Amma həmin köşə yazarı cənab prezidentin arqumentlərinin heç bir faizinə qarşı da cavab verə bilmir, şər-böhtanla məşğuldur. Prezident ipoteka, dərman, turizmlə bağlı vətəndaşları narahat edən bütün məsələləri qaldırdı və həllini tapşırdı.

***- Tapşırıqlar icra olunacaqmı?***

- Təbii ki, bu, ciddi şəkildə nəzarətdədir və hər biri də icra olunacaq. İcra olunmadığı halda cavabdehlər öz cəzasına çatacaq. Çünki vəzifəyə təyin olunan insan ilk növbədə vətəndaşların problemlərini həll etməlidir, problem yaratmamalıdır.

***- Niyə həmin toplantıdan sonra bircə nəfər də olsun məsuliyyətini dərk etdiyini bəyan edib vəzifəsindən imtina etmədi?***

- Bizdə, ümumiyyətlə, bununla bağlı presedent yoxdur. Müstəqillik əldə etdikdən bu günə qədər belə presedent olmayıb. Nöqsanlarda obyektiv və subyektiv səbəblər var.

***- AZAL-da qiymətlərin yüksək olması obyektivdirmi?***

- Onların da özlərinin əsaslandırması var. Amma buna baxmayaraq, hər bir şey xalqa xidmət etməli, xalqın tələbatına uyğun olmalıdır. Vəzifəli şəxs bunu dərk etməli və həll yollarını tapmalıdır, qoymamalıdır ki, məsələlər yuxarı səviyyəyə çatsın. Vaxtilə kimin bir qoyunu itirdisə, Bakıya şikayətə gəlirdi, biri ilə yola getmirdisə, paytaxta üz tuturdu. İndi isə elanlar verilir, nazirlər rayonlara gedir, insanları yerində dinləyirlər, problemlər yerində həll olunur. Əslində rayonlarda icra başçılarının qəbul günü də olmamalıdır. Başçı təyin olunubsa, vətəndaş istənilən gün onun qapısını döyməli, problemlərini çatdırmalıdır. Bütün qapılar vətəndaşın üzünə açıq olmalıdır.

***- Siyavuş bəy, masanızın üstündə bir neçə telefon var. İstənilən nazirliyə zəng edib nazirlə birbaşa danışmaq imkanınız varmı?***

- Təbii ki. O problem yoxdur. Məndə dövlət telefonu da var.

***- Bəzi həmkarlarınız şikayətlənir ki, nazirlərə edilən zənglərə ancaq katibələr cavab verir...***

- 15 ildir parlamentin üzvüyəm, 20 ildir partiya rəhbərliyində çalışıram. Belə bir problemlə rastlaşmamışam. Burda hər iki tərəfin günahı var. Elə məsələ var ki, rayon miqyaslı məsələdir, seçicinin problemidir, elə məsələlər də var ki, şəxsi zəmindədir. Ona görə də elə vəziyyət yaranır ki, telefonlar adamın üzünə qapanır. Elə məsələlər qoymalısan ki, nazir telefonuna cavab versin. Amma hər bir dövlət nümayəndəsinin borcudur ki, millət vəkilinin qaldırdığı məsələyə yazılı və şifahi cavab versin. Əgər bunu kimsə etmirsə, saymazyana yanaşırsa, o, çox səhv edir. Çünki hökumət Milli Məclisin qarşısında hesabat verir.

***- Bəy, bir az sınıxmısınız, deyəsən, pəhrizdəsiniz...***

- Yox. Oruc tuturam. Neçə illərdir ki, mütəmadi olaraq oruc saxlayıram.

***- Namaz da qılırsınız?***

- Yox, hələ namaza çatmamışam. İnşallah, gələcəkdə... Bəzən insanlar bir şeyi vaxtından qabaq etməyə çalışır. Amma gərək hər şey vaxtında yetişsin. İslamın 5 əsas şərti var. Sağlıq olsun...

***- Həcc niyyətiniz də var?***

- Hər bir müsəlmanın iki vətəni var: bir doğulduğu torpaq, bir də müqəddəs Kəbə. Hər bir müsəlmanın arzusudur ki, Kəbəni ziyarət etsin. Amma hər adamın imkanı yoxdur. Qiymətlərdə bir az bahalıq var, inşallah, bu sahədə də vəziyyət düzələcək. İslam dininin ən gözəl modeli Azərbaycandadır. Həm müasirlik var, həm ənənələr qorunub-saxlanılır, həm dövrlə ayaqlaşma məsələsi var.

***- Orucluğun çətinliyi nədir, susuzluq, ya yuxusuzluq?***

- Deyim ki, adam daha çox yüngüllük hiss edir və işləmək üçün kifayət qədər zaman olur. Vaxt getsin, baş qarışsın deyə, işləyirsən, xeyli qalan işləri axıra çatdırmaq mümkün olur. Özü də, görünür, Allahın oruc tutanlara rəhmi gəlib, bu il hava sərindir. Orucluq artıq başa çatır. Sizin qəzet vasitəsilə oruc tutanları da, tutmayanları da müsəlmanların ən gözəl bayramı - Ramazan bayramı münasibətilə təbrik edir, uğurlar arzulayıram. Ramazan ayı günahların bağışlanması ayıdır. Kimin günahları varsa, qoy Allah-təala bağışlasın.

***- Ramazan əfvi ola bilərmi?***

- Gözləyək. Allah hamının qapısını açsın!

**Yekunda masa üzərindəki qəzetlərdən söz düşdü. Müsahibim dedi ki, bütün qəzetləri alır, oxuyur, "Yeni Müsavat"ı da həmçinin. "Əksər materialları qəzetdən oxuyuram, həmçinin xəbərləri gecə saat 2-yədək internetdən izləyirəm".**

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**



# Bir intiharın səbəbləri haqda

Zamin HACI
zaminhaci@gmail.com

“Elə bu vaxt kimsə gizlicə mənə yaxınlaşdı. Mən onun kim olduğuna baxmaq istədim. Amma ətrafa qaranlıq çökməyə başlamışdı. Bu kimsə... həmin bu kimsə görünməyən əli ilə xəncəri mənim sinəmdən çıxardı. Elə bu an qan yenidən püskürüb ağzıma doldu”.

**(Akutaqava Rünoske, “Cəngəllikdə”)**

***

**Bir gənc ailə başçısı Bərdədə özünü körpüdən asaraq öldürmüşdü. Hadisədən dərhal sonra əraziyə yığışan zəhmətkeşlərimiz, hüquq-mühafizə orqanları, xarici müşahidəçilər və sairə dəyərli yoldaşlar şərhlərə başladılar, ilkin qənaət belə oldu ki, adamın banka kredit borcu var imiş, onu ödəyə bilmədiyi üçün intihar etmişdir.**

Mərkəzi Bankın rəhbərliyi, şəxsən Elman Rüstəmov bu xəbəri alan kimi hərəkətə keçdi, idarənin adından rəsmi açıqlama verildi: “Apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, özünü asan şəxsin heç bir kredit təşkilatına borcu yoxdur. Ümumiyyətlə, bu intiharı bank sektoru ilə əlaqələndirmək məsuliyyətsizlikdir”.

Əlbəttə, istənilən şəxsin ölüm səbəblərini araşdırmaq istintaq orqanlarının: polisin, prokurorluğun, məhkəmənin vəzifəsidir. Mərkəzi Bank bu halda öz səlahiyyətlərini aşmışdımı? Qətiyyən. Ona qalsa “Bandotdel”in də maliyyə bazarlarını tənzimləmək funksiyası yoxdur, ancaq hamımız gördük ki, bir sürü bankir-biznesmeni sürüyüb idarəyə apardılar, kreditləri ödətdirib buraxdılar. Əks halda, bank sistemi çökə bilərdi.

Mərkəzi Bank intiharı bank sistemindən uzaqlaşdırmaqla yanaşı, günahkarı da barmaqla göstərmişdi. İdarənin mətbuat açıqlamasında belə yazılmışdı: “Fikrimizcə, intihar üçün körpünün seçilməsi mərhumun yol idarəsində çalışdığını, orda maaşının kəsilməsindən bezdiyini göstərir”.

Mən jurnalist vəzifəmi yerinə yetirib yol idarəsi, **Nəqliyyat Nazirliyi** ilə bağlantı qurdum. Nazirlikdən dedilər ki, MB yalan deyir, ölən nəinki yol idarəsində işləyib, ümumən işsiz imiş. Sitat: “İntiharın günahkarı onu işlə təmin etməyən **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** olmuşdur”. ƏƏƏƏƏƏƏƏSMMMMMN *(hərf çox olanda sosial müdafiəmiz güclənir - Z.H.)* isə NN-i təkzib etdi, mərhumun əsgərliyə getmək istəmədiyi üçün özünü asdığını bildirdi.

**Müdafiə Nazirliyi ilə məxfi danışıqlarımızdan sonra idarədən belə məlumat aldıq:** “Qətiyyətlə deyirik ki, mərhum əsgərliyə çağırılmamışdır. Biz ancaq adı Lazım olan şəxsləri əsgərliyə dəvət edirik, mərhumun adı isə Elşad idi. Daxili araşdırmamız sayəsində onun xəstə olduğunu, böyrəyindəki problem üzündən hərbi xidmətə yararsızlığını müəyyənləşdirdik. Elə müalicə üçün İrana getməyə pulu olmadığından özünü asmışdır. İmza Zakir müəllim”.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Loğman Baytarbəyov** müxbirimizlə söhbətində mərhumun dəfələrlə İrana getdiyini, bu haqda bir topa xəstəlik kağızının olduğunu söylədi. Sən demə, növbəti dəfə gedəndə bunu sərhəddə incidiblər, basabas, növbə olub, nəticədə insan intihar edib.

**Dövlət Sərhəd Xidməti isə Səhiyyə Nazirliyini yalanlayan açıqlama yaydı:** “Bu adamın dəfələrlə sərhədi keçməsi haqda xəbər düz deyil. Biz araşdırdıq, mərhum soğan əkibmiş, ancaq soğan bitməyib”.

**Kənd Təsərrüfatı Nazirliyindən cavab gecikmədi:** “Bu adam soğanı dükandan alırmış. Yalandır!” Ticarət naziri mərhumun dükana heç bir borcu olmadığını, həmçinin soğanı həmişə nağd aldığını bildirdi.

Təhsil naziri onun yaxşı oxuduğunu, mədəniyyət naziri həmişə konsertlərə qulaq asdığını, rabitə naziri telefonunda daima vızovluq kontur saxladığını bildirdi. Beləliklə, biz mərhumun özünü öldürmək səbəblərini araşdırarkən çox dolaşıq bir yola düşdük. Heç cür anlamaq olmurdu ki, bu cür xoşbəxt diyarda, şadlıq qaynayan ölkədə adam özünü körpüdən niyə asıbdır. Yeri gəlmişkən, bu üsulun özü də qeyri-ənənəvi, mentalitetimizə ziddir, çünki damarlarında əsl azərbaycanlı qanı axan adam özünü körpüdən atar. Kim bilir, bəlkə də mərhum bir hərf səhvi etmişdir...

Nəhayət, dünən mərhumun ölüm səbəblərini araşdıran dövlət komissiyasının sədri, baş nazirin 1-ci müavini Abid Şərifovun təşkilatçılığı ilə şeyximiz Allahşükür müəllim idarəyə dəvət edildi, tas quruldu, zər atıldı, rəml oxundu, mərhumun ruhu istintaqa çağırıldı. Rəhmətliyin ruhu uça-uça gəldi, Abid müəllim başda olmaqla, hamımıza, bütün dövlət idarələrinə üç hərflik bir söz deyib çıxıb getdi.

Heyf ki, o sözü burda yazmaq mümkün deyildir. Həm də vacib deyil - özümüz də bilirik söhbət nədən gedir.

# ATƏT PA-nın qətnaməsi Azərbaycana nə vəd edir...

## ... Və ya Ermənistan bundan niyə bu qədər narahatdır?

**Düz 40 il bundan öncə, 1975-ci ildə dünya liderləri bir araya gələrək qlobal qarşıdurma risklərini azaltmaq məqsədilə beynəlxalq münasibətlərdə yeni prinsipləri müəyyənləşdirən və tarixə Helsinki Yekun Aktı kimi daxil olan bir sənəd imzaladılar. Bu sənəd Avropanın təhlükəsizlik arxitekturasını yenidən qurmalı və dövlətlər arasında sülh və əmin-amanlıq çərçivəsində əməkdaşlıq imkanlarını artırmalıydı.**

Lakin keçən bu müddət ərzində dünyada kifayət qədər münaqişə və qarşıdurma, bəzi hallarda isə beynəlxalq hüquq normaları ciddi şəkildə pozulsa da, Helsinki prinsipləri hələ də öz aktuallığını və əhəmiyyətini qorumaqdadır. Çünki bu norma və prinsiplərə alternativ yoxdur və onların dəyişdirilməsi dünyada çox ciddi fəlakətlərə və bizim təxmin edə bilməyəcəyimiz fəsadlara gətirib çıxara bilər. Buna görə də ATƏT PA-nın Helsinkidə keçirilən və Helsinki Yekun Aktının qəbul edilməsinin 40 illiyinə həsr olunan 24-cü yay sessiyası hər bir dövlət, xüsusilə də bu prinsiplərin pozulmasından əziyyət çəkən və işğala məruz qalan Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi.

Bu baxımdan Azərbaycanın millət vəkili Azay Quliyevin beynəlxalq hüquqa riayət edilməsi sahəsində yaşanan hazırkı ciddi böhrana bir daha diqqəti cəlb etmək və Azərbaycanın milli maraqlarını hüquqi sənəd formasında müdafiə etmək məqsədilə “ATƏT məkanında dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə sadiqlik” adlı qətnamə layihəsi ilə çıxış etməsi çox təqdirəlayiq hadisə oldu. Seçilmiş düzgün taktika, Azərbaycanla yanaşı, hazırda daha çox müzakirə olunan Ukrayna, o cümlədən Gürcüstan və Moldovada olan münaqişələrin qətnamədə qeyd olunması, dəqiq hüquqi ifadələr və peşəkar yanaşma qətnamənin qəbulu üçün münbit şərait formalaşdırmışdı.

Azay Quliyevin ATƏT PA-nın Təhlükəsizlik və Siyasi Məsələlər Komitəsinin sədr müavini və Büro üzvü olması da onun müəllifi olduğu qətnamənin qəbul imkanlarını artırdı. Təsadüfi deyil ki, iyulun 7-də ATƏT PA-nın Təhlükəsizlik və Siyasi Məsələlər Komitəsində qətnaməyə ermənilər və ruslar tərəfindən irəli sürülən 14 dəyişiklikdən heç biri dəstəklənmədi və sənəd olduğu kimi qəbul edildi. İyulun 9-da isə ATƏT PA-nın plenar sessiyasında Ermənistan nümayəndə heyətinin qətnamənin Helsinki bəyannaməsi və sənədlərinə daxil edilməsinin qarşısını almaq cəhdi nəticə vermədi və qurum sözügedən qətnaməni özünün rəsmi sənədi elan etdi.

Bir neçə gündür ki, mediada bu sənədlə bağlı müzakirələr aparılır. Dünən isə Azərbaycan Xarici İşlər Nazirliyinin bu qətnaməni şərh etməsi və ona yüksək qiymət verməsi sənədin Azərbaycan üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərdi. Tam əksinə, Ermənistanda bu qətnamənin işğalçı ölkə üçün iflas kimi dəyərləndirilməsi isə dolayısı ilə Azərbaycanın əldə etdiyi diplomatik və siyasi qələbəni bir daha təsdiq etmiş oldu.




**İndi isə qətnamədə yer alan bəzi məqamlara diqqəti cəlb etməklə onun Azərbaycan üçün aşağıda qeyd olunan 10 mühüm əhəmiyyətini vurğulamağı vacib hesab edirik:**

*ATƏT PA Azərbaycanda (Ukrayna, Gürcüstan və Moldova) uzun müddət davam edən münaqişələrdən dərin narahatlığını ifadə edir (5-ci maddə)*

*ATƏT PA ATƏT ərazisindəki münaqişələrin qeyd olunan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyinə təhlükə yaratdığını, davamlı inkişafı və demokratik islahatları ləngitdiyini bildirir (6-cı maddə)*

*ATƏT PA bir dövlətin digər dövlətin ərazi bütövlüyü və ya siyasi suverenliyinə qarşı güc tətbiq etmək və ya güc tətbiq edərək hədələməkdən çəkinməli olduğu kimi öhdəliyinin olduğunu xatırladır (maddə 10)*

*ATƏT PA dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün qorunması prinsipini bir daha vurğulayaraq güc tətbiqi yolu ilə ərazilərin qəsb edilməsini yolverilməz hesab edir (maddə 11)*

*ATƏT PA adıçəkilən ölkələrin ərazi bütövlüyü və suverenliyinə qəsdin (işğalın) qanuniləşdirilməsi və ya tanınması, belə vəziyyətin davam etməsinə göstərilən istənilən dəstəyi, habelə bu istiqamətdə edilən birbaşa və dolayı cəhdləri qanunsuz və yolverilməz hesab edir (maddə 12)*

*ATƏT PA xalqların öz müqəddəratını təyinetmə və bərabərhüquqluluq prinsipinin münaqişəyə cəlb olunmuş dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinin pozulması hesabına həyata keçirilməsini yolverilməz hesab edir (maddə 13)*

*ATƏT PA Azərbaycan və digər işğala məruz qalmış ölkələrin ərazisindən zorla qovulmuş məcburi köçkünlərin qeyd-şərtsiz, təhlükəsiz və ləyaqətli bir şəkildə öz yaşadıqları yerlərə (evlərinə) qayıtmaları üçün müvafiq şəraitin yaradılmasını tələb edir (maddə 14)*

*ATƏT PA soyqırım, insanlıq əleyhinə və hərbi cinayət törətmiş şəxslərin cəzasız qalmasından ciddi narahatlıq ifadə edir və üzv dövlətlərin gələcəkdə bu cür halların təkrarlanmaması, sülh və ədalətin tam bərpası naminə bu cür cinayət törətmiş şəxslərin istintaqa cəlb olunması və məhkum olunmasına və cəzasızlığa son qoyulmasına dair öhdəliklərini yerinə yetirməsinin vacibliyini vurğulayır (maddə 15)*

*ATƏT PA münaqişələrin həllində BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrasının vacibliyini qeyd edir (maddə 16)*

*ATƏT PA Azərbaycandakı (həmçinin Gürcüstan, Moldova və Ukrayna) mövcud münaqişələrin beynəlxalq hüquq normaları, xüsusilə də dövlətlərin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini təkidlə tələb edir (maddə 19)*

Heç şübhəsiz ki, dünyada ikili siyasətin tüğyan etdiyi bir dövrdə, Azərbaycanın uğurlarına kölgə salmağa cəhdlərin artdığı bir zamanda, “böyük güclər”in ölkələri öz təsir dairəsində saxlamaq cəhdlərinin gücləndiyi bir vaxtda bu sənədin qəbulu Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi düzgün və milli maraqlarımızı özündə ehtiva edən xarici və daxili siyasətinin, xüsusilə, son zamanlar tam olaraq özünü doğruldan Azərbaycanın hücum diplomatiyasının konkret nəticəsidir. Əminik ki, Azərbaycan Parlamenti və XİN-in uğurlu əməkdaşlığı sayəsində qəbul edilən bu qətnamə Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və torpaqlarımızın geri qaytarılması üçün aparılan danışıqlarda ölkəmizin mövqeyini daha da möhkəmləndirəcək.

XİN-in də bəyan etdiyi kimi, Helsinki Yekun Aktına əsaslanmalı olan ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən bu qətnamədə sadalanan müddəalar rəhbər prinsiplər kimi nəzərə alınmalı və onların icrası Ermənistandan tələb edilməlidir. Əgər Ukraynada olan münaqişə ocağına görə sanksiyalar tətbiq edilirsə, Azərbaycan torpaqlarının işğalı faktına görə də Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bunun üçün ATƏT PA-da qəbul olunan qətnamədə əlverişli hüquqi baza yaradılıb. Təkcə qalır onun icrası.

❑ **“Düşüncə” İctimai Birliyinin Analitik Qrupu**

Yeni Müsavat
N 154 (6182) 16 iyul 2015

# Qarabağda savaş riskləri artır

**Qarabağ danışıqları alanında bir canlanma müşahidə edilməkdədir. Xüsusən də ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik səviyyəsində fəallıq diqqət çəkir ki, bu da ümidverici olmaqla yanaşı, rəsmi Vaşinqtonun problem ətrafındakı situasiyadan, konkret olaraq yeni müharibə ehtimalından ən çox narahatlıq keçirdiyi təəssüratını yaradır.**




## Azərbaycan müharibəyə başlayır - NATO rəsmisi...

### Amerikalı vasitəçinin, NATO yetkilisinin “müharibə hər an alovlana bilər” əndişələri boşuna deyil; ordumuzun torpaqları qısa zamanda işğalçılardan təmizləmək əzmi hər gün daha qabarıq görünür; prezidentin “Bir həftəyə işğalçının daşı daş üstdə qalmaz” xəbərdarlığı həm də ermənilərin havadarlarına mesajdır ki...

Azərbaycan və Ermənistan prezidentlərini tezliklə ABŞ-da görüşdürmək üçün amerikalı diplomatın hamıdan çox təşəbbüs göstərməsi də ilk növbədə savaş risklərini zəiflətməyə hesablanıb. Uorlik son müsahibələrində bunu dönə-dönə vurğulayır. Qeyd edir ki, prezidentlərin görüşü heç olmasa, təmas xəttində gərginliyi azaldardı. Bu haqda ətraflı az sonra.

***

**Azərbaycan isə daha neçə il gözləyə bilməz və o üzdən görüş xətrinə görüşləri təqdir eləmir. Son olaraq prezident İlham Əliyev 2015-ci ilin 1-ci yarısının yekununa həsr olunmuş müşavirədə bunu - konfliktlə bağlı Azərbaycanın rəsmi mövqeyini növbəti dəfə ortaya qoyub. Xüsusi qeyd edib ki, torpaqlarımızı işğal edən təkcə Ermənistan yox, həm də onun havadarlarıdır. Söhbət təbii ki, öncəliklə Rusiyadan gedir.**

Sitat: “Tərəflər arasında atəşkəs rejimi elan olunandan sonra münaqişənin həllinə cəlb olunmuş vasitəçilərin mənasız görüşləri, beynəlxalq təşkilatların qeyri-ciddi bəyanatları və sair... Azərbaycan xalqı illərdir bunları eşidir. Artıq hər kəs beynəlxalq aləmin ermənilərin havadarı olduğunu anlayır. Münaqişənin həllinin də məhz bu səbəbdən acı bağırsaq kimi uzanmasını, dünyaca məşhur diplomatların, siyasətçilərin məhz erməniləri qoruyaraq problemin həllini qaranlıq dalanlarda ”axtardıqlarını" çox yaxşı başa düşürlər. Görəsən, hətta məktəb partası arxasında əyləşən uşağa belə bəlli olan adi, sadə, bəsit həqiqət - Azərbaycan dövlətinin torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu bu siyasət adamları, dünyanı idarə edən bilim insanları dərk edə bilmirlərmi? Çox gözəl bilir və dərk edirlər. Sadəcə, anladıqlarını bəyan etmək onlara sərf etmir. Çünki bu dərk erməni havadarlarının maraqlarına toxunur, saxta siyasətləri ilə üst-üstə düşmür və Azərbaycana qarşı həyata keçirdikləri məkrli planlarının icrasına mane olur".

**Dövlət başçısı Azərbaycan Ordusunun vəziyyəti ilə bağlı çıxışında qeyd edib ki, Milli Ordu üçün ən müasir silah, texnika alınır və alınacaq:** “Ordu quruculuğu bizim üçün daim prioritetdir. Gələcəkdə də hərbi potensialımızın gücləndirilməsi bir nömrəli vəzifə olacaq. Nəzərə alsaq ki, müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, daha da ciddi diqqətə malik olmalıdır”.

**Ordumuz isə müdafiə naziri Zakir Həsənovun da açıqlamalarından və əmrlərindən göründüyü kimi, torpaqların işğaldan azad olunmasına artıq hazırdır. Bunu ermənilər və onların havadarları çox gözəl bilirlər. İlham Əliyev çıxışında bu nüansa da toxunaraq vurğulayıb ki, Ermənistan hələ ki yalnız xarici maliyyə, hərbi və siyasi dəstək hesabına torpaqlarımızı işğal altında saxlaya bilir:** “Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş-daş üstündə qalmaz. Bu da reallıqdır və yenə deyirəm ki, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, bu istiqamətdə bütün hazırlıq işlərini görürük”.

**“Real dünya” dedikdə şübhə yox ki, ölkə başçısı Azərbaycan üçün uğurlu müharibə şərtlərini, öncəliklə də Rusiya, Türkiyə amillərini nəzərdə tutur. Odur ki, ziyanın yarısından qayıtmaq da işğalçı tərəf üçün xeyirli sayıla bilər.** “Üzümü tutub onlara xitab etmək istəməsəm də, sözüm ermənilərədir. Nə qədər gec deyil, yanlış yoldan geri dönün. Onsuz da istənilən halda uduzan siz olacaqsınız”, - deyə Ali Baş Komandan həm də ermənilərin havadarlarına xitab və xəbərdarlıq edib.

***

Silahlı qüvvələrimizin hərbi-texniki potensialı isə doğrudan da işğalçı qüvvələrlə müqayisəyə belə gəlməz. Məsələn, Bakı təkcə Belarusdan az qala bir ordunun silahını alıb - 153 tank, 11 “Su-25" hücum-bombardmançı təyyarəsi, 60 ədəd BTR, 120 ədəd qaubitsa, 12 özüyeriyən ”Pion" qaubitsası *(dünyanın ən güclü və ən uzaqvuran artilleriya sistemi hesab olunur),* 130-dan çox top. Bu barədə Belarusun adi silahların ixracına dair BMT-nin Xüsusi Reyestrinə təqdim etdiyi arayışda bildirilir.

Bütövlükdə Minskin ən çox silah və hərbi texnika satdığı ölkə Azərbaycandır. Ermənistana isə praktiki olaraq Belarusdan silah ixracı olmayıb. Bura son dövr ərzində Azərbaycanın Rusiya, Ukrayna, Türkiyə, İsrail və hərbi-texniki tərəfdaşlıq etdiyi digər ölkələrdən idxal etdiyi silah və hərbi texnikanı da əlavə eləsək, ordumuzun hərbi gücünün hansı səviyyəyə qalxdığı, Ermənistanın işğalçı qüvvələrinin hərbi potensialını necə dəfələrlə üstələdiyi haqda təsəvvür yaranar.

***

Məhz elə bu reallıqdan - mənasız danışıqlardan bezən Azərbaycanın silahlı qüvvələrinin qısa zamanda düşməni əzmək potensialını nəzərə alan beynəlxalq vasitəçilər və güclər deyəsən, artıq ciddi şəkildə narahatlıq keçirməyə başlayıblar. Rusiyanın Ermənistana silah almaq üçün 200 milyon dollarlıq kredit ayırmaq zorunda qalması da eyni təlaşla izah edilə bilər.

**“Həll edilməmiş Qarabağ münaqişəsi regionda sabitliyə təhlükə yaradır”. Bunu NATO-nun Cənubi Qafqaz üzrə koordinatoru Uilyam Lahyu deyib.** Onun sözlərinə görə, münaqişənin sülh yolla həlli çox çətin prosesdir və tərəflər arasında vasitəçilik NATO-nun səlahiyyətlərinə daxil olmasa da, alyans münaqişənin nizamlanması ilə bağlı Minsk Qrupunun səylərini tamamilə dəstəkləyir.

Qarabağ zonasında xüsusən də yay aylarında müharibə riskinin yüksək olmasını amerikalı və rusiyalı hərbi analitiklər də zaman-zaman dilə gətiriblər. Son olaraq bu əndişəni həmsədr **Ceyms Uorlik** Moskvaya təzəcə başa çatan səfəri çərçivəsində bəyan edib. “Vedomosti” nəşrinə geniş müsahibəsində vasitəçi **“Hər cür əsas var deyək ki, konflikt alovlana və genişlənə bilər”** - deyib.

**Nəzərə alsaq ki, Uorlik təcrübəli diplomat sayılmaqla yanaşı, Amerikanın yetərincə informasiyalı şəxslərdəndir, o zaman yeni müharibə riskinin həqiqətən də ciddi olması qənaəti möhkəmlənər. Sitat:** “Ona görə də biz Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü səbirsizliklə gözləyirik... Biz əldə olunanların əsasında diskussiyanı davam etdirməyə səy edirik. Bu, bir sıra məqamlara aiddir. Onların arasında Dağlıq Qarabağ ətrafındakı ərazilərin nizamlama çərçivəsində Azərbaycanın nəzarətinə qaytarılması, Dağlıq Qarabağın statusu, qaçqınlarla bağlı situasiya, təhlükəsizlik zəmanətləri məsələləri var”.

**Uorlik konfliktin 22 ildə həll edilməməsinin böyük məyusluq yaratdığını etiraf edib:** “Həqiqətən də böyük məyusluq var - o cümlədən regionda. Tərəflər atəşkəs rejimini gözləmir ki, bu da bizdə narahatlıq yaradır. Qanlı münaqişə istənilən an baş verə bilər”.

Sonda amerikalı diplomat iddia edib ki, Rusiya ilə Qərb arasında gərginlik yaşansa da, “fikir ayrılıqlarının Qarabağ məsələsinə aidiyyəti yoxdur və bu məsələdə Moskva ilə Vaşinqtonun mövqeyi üst-üstə düşür”.

***

Ancaq belədirsə, o zaman məntiqli sual yaranır: bəs postsovet məkanının ən üzücü konfliktini nəhayət, dinc yolla nizamlamağa nə mane olur bu güclərə? Azərbaycan prezidentinin təbiri ilə desək, ermənilərə havadarlıqmı? Axı belə ikili standartın özü ən böyük müharibə riski deməkdir, çünki Azərbaycan öz ərazilərinin itirilməsi ilə, danışıqların sonsuzadək davam eləməsi ilə heç vaxt barışmayacaq. İndi müharibəni kim istəyir, Azərbaycan, yoxsa...

O da unudulmamalıdır ki, yeni müharibədə Qərbin də, Rusiyanın da maraqları eyni dərəcədə ziyan görəcək, çünki Dağlıq Qarabağ Cənubi Osetiya deyil və Türkiyə, nüvə Pakistanı amili var. Bu müharibə o müharibədən olmayacaq...

**❑ Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 154 (6182) 16 iyul 2015



# Hökumət bizi inandırdımı?

Hüseynbala SƏLİMOV

**Oyunlar bitdi və həyat öz məcrasına qayıtdı. Bəli, bugünlərdə Mərkəzi Bankın sədri milli valyutanın kursu ilə bağlı problem yaşanmayacağnı desə də insanların arasında hələ də narahatçılıq və nigarançılıq qalmamaqdadır. Ona görə ki, bu vaxta qədər belə fikir vardı ki, hökumət milli valyutanın kursunu Avropa Oyunlarına qədər saxlayacaq və oyunlardan sonra kursa yenə də korrektələr ediləcək...**

Belə gümanların səbəbi bəlkə də inflyasiyanın birinci dalğasının yaratdığı xof idi. O vaxt əksər müstəqil iqtisadçılar ölkədə güclü böhranın yaşanacağını deyirdi və biz də müəyyən mənada onların bu proqnozlarını nəzərə almağa məcbur idik...

Amma böyük böhran baş vermədi. Həmin müstəqil iqtisadçılar bunu belə izah etdi ki, hökumət milli valyutanın kursunu bir az aşağı saldı, fəqət, yenə də onu müəyyən həddə saxlamaq üçün bazara valyuta emissiya etməkdə davam edir...

Bugünlərdə hökumətin yarım illik fəaliyyətilə bağlı toplantı da keçirildi. Biz bu toplantıda deyilənlərə də diqqət kəsildik; hipotetik böhranla bağlı bir kəlmə də deyilmədi. Amma böhranın birinci dalğası ərəfəsində də belə olmuş və dünyadakı, xüsusən də qitədəki böhrana rəğmən ölkədə bunun olmayacağını və manatın kursunun sabit qalacağı deyilmişdi. Gəl, bir azacıq sonra manatın o vaxtkı kursunun ticarət əməliyyatları üçün problem yaratdığı deyildi və manat qismən ucuzlaşdırıldı...

Təhlilçilər həm də ona görə nigarandır ki, adətən kursun aşağı salınması və ya onun qismən sərbəst buraxılması qəfil edilir. Bu, irəlicədən deyilsə böyük sosial kataklizmlər yaşanar. Qərəz, bizim indi hökumətin dediklərinə inanmaq və bunu qəbul etməkdən savayı çarəmiz yoxdur...

Hərçənd, adı çəkilən toplantı heç də bütün suallara cavab vermədi. Məsələ bundadır ki, Avropa Oyunları ərəfəsində çoxlu sayda iqtisadi layihələr dayandırılmışdı. Onların taleyi nə olacaq? Bu layihələrin maliyyələşdirilməsi bərpa olunacaqmı? Təəssüf ki, bu xüsusda da heç nə deyilmədi. Halbuki bu məsələ bilavasitə sosial proseslərlə, iş yerlərinin açılması ilə bağlıdır. Elə ona də hökumətin toplantısını heç də son söz hesab etmək olmaz...

Həm də bir ciddi məsələ var. Ölkə iqtisadiyyatını durumu bilavasitə neftin dünya bazarındakı qiymətindən asılıdır. Qeyri-neft sektoru haqqında nə qədər yüksək sözlər deyilsə də o, büdcəni təmin etmək baxımından hələki neft və qaz sektoru ilə rəqabətə girə bilmir...

Neftin qiymətini proqnozlaşdırmaq elə də asan deyil. O, aşağı düşməyə başlayanda belə fərz edildi ki, təxminən yay aylarında qiymət sabitləşəcək və böyük ehtimalla ilin axırına qədər bir həddə qalacaq...

Amma burada iki məqam var. Birincisi, ABŞ-ın öz neft ehtiyatlarının bir hissəsini bazara çıxarmaq istədiyi haqda söhbətlər gəzir. Düzdür, bu, hələ bir ehtimaldır, amma onu tamam nəzərdən qaçırmaq da olmaz. İkincisi, İranla "altılıq ölkələri" arasında axır ki, razılşama əldə edildi. Düzdür, bu razılşamanın hələ mürəkkəbi qurumayıb, çox detallar hələ aydın deyil, di gəl, İrana qarşı bu vaxta qədər tətbiq edilən sanksiyalar götürlsə və bu ölkə daha artıq neft və qaz ixrac etməyə başlasa, təbii ki, dünyadakı enerji balansına və qiymətlərə təsir edəcək, çünki onun böyük ehtiyatları var...

Ən azı ilkin razılaşmalar göstərir ki, enerji bazarında hər halda təklif artacaq, nəinki aşağı düşəcək. Bu isə sözsüz ki, qiymətlərə təsir edəcək...

Qərəz, çox arqumentlər sadalamaq olar. Amma inflyasiyanın bir sosial tərəfi də var. Ona psixoloji inflyasiya deyilir. Bəzən panika və söz-söhbət özü ölkə iqtisadiyyatındakı, xüsusən də maliyyə bazarındakı balansı pozmaq iqtidarındadır. İnsanlar bunu inflyasiyanın birinci dalğası zamanı artıq yaşadı-o vaxt mağazalar, supermarketlər satışı dayandırmış, valyuta dəyişmə məntəqələri qarşısında hətta növbələr yaranmışdı. Amma xoşbəxtlikdən bu, çox çəkmədi, panika tez bir zamanda sovuşdu...

Hər halda, ilin sonu "maraqlı" olmağı vəd edir. Yada salmaq lazımdır ki, bu il həm də parlament seçkiləri olacaq. Azərbaycan hakimiyyəti reallıqda ictimai rəydən və seçicilərin sanksiyalarından asılı olmasa da hər halda seçki dövründə kəskin inflyasiya və qiymət artımı proqnozlaşdırmaq o qədər də düz deyil, böyük ehtimalla bunlar olmayacaq...

Elə bu səbəbdən də bu ilin problemsiz sovuşacağı qənaətindəyik. Növbəti il nə olacaq və nə baş verəcək? Bu, isə artıq, necə deyərlər, növbəti ilin qayğısıdır...

# İlham Əliyevə necə məktub yazmaq olar...

## Dövlət başçısına birbaşa sözünü çatdırmağın forması, qaydaları "Yeni Müsavat"da...

**İyunun 15-də Gürcüstanda keçiriləcək yerli özünüdarə seçkiləri ilə bağlı soydaşlarımızın yaşadığı Marneulidə problem yaranıb. Belə ki, "Milli Hərəkat" partiyası Marneuli şəhərində icra başçısı vəzifəsinə namizəd kimi azərbaycanlını təqdim etsə də, sonradan müəyyən səbəblərdən onun namizədliyi qeydə alınmayıb.**

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında deyib ki, vətəndaşlar qorxmasınlar, ona birbaşa şikayət etsinlər:** "Kimsə varlanmaq üçün gəlsin sahibkarları boğsun ki, sahibkar qapısına qıfıl vurub çıxıb getsin. Bu, dözülməz haldır. Yəni bunu edən dövlətə xəyanət edir. Bunu edən, sadəcə olaraq, pul qazanmır, dövlətə xəyanət edir. Mən bunu belə qəbul edirəm və hamı bunu bilsin və nəticə çıxarsın. Ona görə, bax, bu gün mən bütün aidiyyəti qurumlara və eyni zamanda sahibkarlara göstəriş verirəm. Mənə məlumat versinlər, qorxmasınlar, siqnal versinlər, məktub yazsınlar, e-mailə yazsınlar. Əgər belə hallar varsa, o xoşagəlməz işlərlə məşğul olan dərhal öz cəzasını alacaq".

Bu bəyanatı eşidəndən sonra yaşadığı bu və ya digər problemlə bağlı ölkə başçısına məktub yazmaq istəyənlərin əsas sualı bu oldu: prezidentə necə yazaq? Hansı formada, həcmdə ifadə edək fikrimizi? Elektron üsulla, ya dədə-baba yolu ilə, poçtla?

"Yeni Müsavat" bildirir ki, prezidentə www.prezident.az saytındakı "məktub yaz" bölməsi vasitəsilə elektron məktub yazmaq olar. Hər bir vətəndaş ölkə başçısına elektron məktub yazmazdan əvvəl "Müraciətlərin qəbulu və baxılması qaydaları"nı dəqiq bilməlidir. İnternet vasitəsilə göndərilən müraciətlər PA-nın sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə daxil olur. Şöbəyə daxil olan məktub və müraciətlər həmin gün qeydiyyata alınır və baxılması üçün prezidentin iş otağına göndərilir. Məktuba baxıldıqdan sonra cavab anketdə göstərilən poçt ünvanına adi poçtla göndərilir. O ki qaldı internet vasitəsilə göndərilən məktublara, belə müraciətlərin mətni 1500 işarədən çox olmamalıdır. Elektron müraciətdə qoşma faylların, yəni fotoşəkil, hansısa sənədin surətinin əlavə olunmasına icazə verilmir.

Mətni uzun olan məktublar, sənəd surətləri, fotoşəkillər və yol verilən digər əlavələr adi poçtla göndərilə bilər. Prezidentə ünvanlanmış yazılı müraciətin müəllifi özü barədə fərdi məlumatları, müraciətin mövzusunu dəqiq göstərməli, yəni adı, soyadı, atasının adı, yaşı, yaşadığı şəhərin *(rayonun, qəsəbənin, kəndin)* adını, ünvanını, telefon nömrəsini, e-mail adresini (əgər varsa) və sosial statusunu anketdə qeyd etməlidir. Vətəndaşlar PA-nın qəbul otağında qəbul olunurlar. Qəbula yazılma vaxtı: saat 9:00-dan 13:00-dəkdir. Qəbul saatı 14:00-dan başlayır. PA-da hər ay vətəndaşların qəbulu üzrə xüsusi qrafik müəyyən edilir. Bu cür qəbullar şəxsən prezidentin özü deyil, onun müşavirləri və köməkçiləri, mətbuat katibi, habelə Prezident Aparatının məsul işçiləri tərəfindən keçirilir.

Dövlət başçısına müraciətlər haqqında ümumiləşdirilmiş məlumatlar müntəzəm olaraq bu saytın "Prezidentə yazırlar" bölməsində dərc olunur. Burada isə daha çox təşəkkür xarakterli məktublar yer alır.

Azpresident.az-ın məktublar bölməsində bu barədə geniş məlumat verilib. Şikayəti yazmazdan əvvəl forma doldurmaq lazımdır. Saytın məktub bölməsində aşağıdakı yazılıb: **"Hörmətli istifadəçi! Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə və Prezident Administrasiyasına məktub göndərmək üçün aşağıdakı formanı doldurun. Diqqətli olmağınız Sizdən xahiş olunur!»**

Formada ərizə yazan şəxsin ad-soyadı, atasının adı, yaşadığı ölkə, şəhər, telefon nömrəsi, e-mail ünvanı, yaşı, sosial durumu, müraciətin növü, sosial durum, əsas mövzu kimi bölmələr var ki, forma müəllifi onu doldurmalıdır.

**President.az saytında yer alan "Prezidentə məktub yazmaq" bölümündə həmin məktubun yazılma qaydaları, detalları da yer alıb. Həmin detalların yer aldığı bildirişdə qeyd olunub:**

"Hörmətli istifadəçilər! Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəsmi internet səhifəsi Konstitusiyanın 57-ci maddəsinə uyğun olaraq vətəndaşların müraciət etmək hüququnun reallaşdırılması vasitəsidir. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsinin hər bir istifadəçisinin məktub göndərmək, arzularını bildirmək, onu maraqlandıran məsələlər barədə yazmaq, təklif, ərizə və şikayətlə müraciət etmək imkanı vardır.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ÜNVANINA ELEKTRON FORMADA MÜRACİƏT GÖNDƏRMƏZDƏN ƏVVƏL, XAHİŞ EDİRİK QAYDALARLA TANIŞ OLUN:**

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi vasitəsilə elektron formada göndərilmiş müraciətlər Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə daxil olur və "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının 1997-ci il 10 iyun tarixli 314-IQ nömrəli Qanununa, habelə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları"na uyğun olaraq qeydiyyata alınır və baxılır.

Mətni yazmazdan əvvəl nəzərdə tutulmuş formanın düzgün cavablandırılması vacibdir.

Mətn mütləq yazıldığı dilin əlifbası ilə tərtib olunmalıdır, bütövlükdə böyük və ya kiçik hərflərlə yazılmamalı, cümlələrə bölünməli, durğu işarələrindən istifadə qaydalarına riayət edilməlidir.

Müraciət aydın və səlis cümlələrlə yazılmalıdır.

Müraciət edərkən etika qaydaları gözlənilməlidir. Nəzakətsiz ifadələr işlədildikdə və ya müəllif özü barədə məlumatları dəqiq göstərmədikdə müraciətə cavab verilmir.

Hörmətli internet səhifəsi istifadəçiləri! Böyük informasiya axınının işlənməsi xüsusiyyətlərini nəzərə alaraq, xahiş edirik bəzi məhdudiyyətlərə hörmətlə yanaşasınız:




Bir mənbədən elektron məlumatın göndərilməsinin vaxtı serverin yüklənməsindən asılı olaraq 1-5 dəqiqə ilə məhdudlaşır.

Elektron müraciətin mətni 1500 işarədən çox olmamalıdır.

Elektron müraciətdə qoşma fayllar olmamalıdır. Mətni uzun olan məktublar, sənəd surətləri, fotoşəkillər və yol verilən digər əlavələr Prezident Administrasiyasının E-mail: office@pa.gov.az ünvanına və ya adi poçtla bu ünvana göndərilməlidir".

Amma təcrübə göstərir ki, insanları məktub yazmaqdan çəkindirən məqam bir çox hallarda məlumatsızlıq, internetdən istifadə qaydalarını bilməməkdirsə, bəzən da ehtiyatlılıqdır. Daha öncə təcrübədə prezidentə məktub yazdığı üçün yerlərdəki məmurlar tərəfindən təzyiqə məruz qalan vətəndaşların olması məsələni daha da dramatikləşdirir. Belə ki, insanları o formanı doldurandan, barələrindəki bütün məlumatları açıqlayandan sonra yaşaya biləcəkləri problemlər qorxudur. Amma qəzetə müraciət halında vətəndaşa çatımlılıq, dolayısı ilə "cəzalandırılma ehtimalı" daha da güclənir.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 154 (6182) 16 iyul 2015




# "Ölkədə ucuz sosial evlər almaq mümkün olacaq"

## Vüqar Bayramov: "Dövlət başçısının təşəbbüsü ilə sosial mənzil fondunun formalaşdırılmasına başlanılır"

**Dövlət başçısı İlham Əliyevin ipoteka kreditləri ilə bağlı açıqlaması bu sahəyə olan ümidi artırıb. Ekspertlər bildirirlər ki, ipoteka kreditləşməsi ilə bağlı dövlət büdcəsindən əlavə ayrılacaq 200 milyon manat vəsait ev bazarını canlandıracaq. Ekspert Vüqar Bayramov da bildirir ki, sosial ipoteka kreditlərinin büdcədən maliyyələşdirildiyini nəzərə alsaq, bu, kreditləşmə növünə ayrılan vəsaitin həcminin 4 dəfə artırılması deməkdir:**

"Qeyd edək ki, 2015-ci ildə sosial ipoteka kreditlərinə ayrılan vəsaitin həcmi 25 faiz artırılaraq 40 min manatdan 50 min manata çatdırılmışdır. Azərbaycan prezidenti bildirdi ki, verilən vəsaitə mövcud binalardan mənzillər alınacaq, ya da ki, yeni binalar tikiləcək. Ölkə prezidentinin fikrincə, kredit şərtləri elə olmalıdır ki, ipotekaya maraq artsın. Sosial ipoteka kreditlərinin güzəştli olduğunu nəzərə alsaq, bu, xüsusən sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqələrin sözügedən vəsaitdən yararlanmasına imkan verəcək. Bu ən azı 5 min ailənin sadəcə sosial ipoteka kreditindən faydalanaraq öz mənzil problemini həll etməsi deməkdir. Eyni zamanda ipoteka kreditləşməsi aktiv tələb formalaşdırsa da kreditin mərhələli ayrıldığını və maliyyələşmənin əsasən Bakının 2-ci və 3-cü zonalarına təsir göstərdiyini və əmlak bazarındakı tələbin mövcud səviyyəsini nəzərə aldıqda mənzillərin qiymətində yaxın zamanlarda artımlar proqnozlaşdırılmır".

**Ekspertin sözlərinə görə, dövlət başçısının da qeyd etdiyi kimi, ipoteka proqramın şərtlərinin təkmilləşdirilməsinə ehtiyac var:** "Bu istiqamətdə nələrin edilməsinə ehtiyac var? Kreditlərin verilməsi üçün ayrılan vəsaitin həcminin artırıldığını nəzərə alaraq sosial ipoteka üçün maksimum məbləğin artırılması vacibdir. Nəzərə alaq ki, bu kredit növü üzrə hazırda maksimum məbləğ 50 min manatdır. Təbii ki, bu məbləğ əmlak bazarındakı mövcud qiymətlərə uyğun deyil. Buna görə də maksimum məbləğin ən azı 75 min manatadək artırılması məqsədəuyğundur. Bu, ipoteka kreditlərinin səmərəliliyini mənzil bazarındakı qiymət səviyyəsinə uyğun olaraq müəyyən qədər yüksəltməyə imkan verəcək. Eyni zamanda ipoteka kreditlərinin verilməsi zamanı ilkin ödənişin gənc ailələr üçün ləğv edilməsi vacibdi. Bunun üçün uzun müddət müzakirə edilən 2 praktikadan istifadə edilməsi mümkündür. Birincisi, əmanət tikinti banklarının formalaşdırılmasından, ikincisi, ipoteka fondu yanında ipoteka zəmanət fondunun formalaşdırılmasından ibarətdir. Bu isə imkan verəcək ki, zəmanət fondu vətəndaşlara 100 faizlik kredit verə bilsin. İpoteka krediti təklif edən bankların əksəriyyətinin bu ilin iyununda ilkin ödəniş məbləğini artırmaqla risklərini sığortalamağa çalışdıqlarını nəzərə alsaq, bu addımın atılması olduqca əhəmiyyətlidir. Belə ki, əgər əvvəllər adi və sosial ipoteka krediti təklif edilən zaman mənzil qiymətinin 20 faiz həcmində ilkin ödəniş tələb edilirdisə, indi bu göstərici əksər banklarda ən azı 2 dəfə artırılıb. Bu baxımdan, ipoteka qanunvericiliyinə dəyişiklik edilməsi və ilkin ödənişlər üçün minimum deyil, maksimum limitlərin müəyyənləşdirilməsinə ehtiyac var. Yeni Mərkəzi Bank "qiymət tavanından" istifadə etməklə prosesi tənzimləyə bilər. Bu zaman qanunvericiliyə edilən dəyişikliklə sosial ipoteka kreditləri üçün maksimum 20 faiz ilkin ödənişin tələb edilməsi müəyyənləşdirilə bilər. Sosial ipoteka kreditləşməsinə ayrılan vəsaitin həcminin artırıldığını nəzərə aldıqda, regionlara veriləcək ipoteka kreditlərinin məbləğinin artırılmasına da ehtiyac var. Regionlara verilən kreditlərin məbləğində xeyli azalmalar var. Eyni zamanda regionlar ipoteka kreditlərindən tam olaraq istifadə edə bilmədiyi üçün regionlara verilən ipoteka kreditlərinə limitlərin müəyyənləşdirilməsi məqsədəuyğundur. Həmin limitlər daxilində ipoteka krediti təqdim oluna bilər. Bu, o deməkdir ki, məsələn, ay ərzində 5 milyon manat ipoteka krediti ayrılacaqsa, bunun yarısı- 2,5 milyon manatı məhz regionlar üçün nəzərdə tutulmalıdır. Bu da regionların ipoteka kreditlərindən istifadə imkanlarının genişlənməsinə səbəb ola bilər. Regionlara təqdim edilən ipoteka kreditləri üçün diferersial faizlər tətbiq etməklə bölgədə yaşayan vətəndaşlarımıza 2 faizlik sosial ipoteka kreditinin təklif edilməsi də mümkündür".

**V.Bayramov bildirib ki, dövlət başçısının qeyd etdiyi digər mühüm istiqamət sosial mənzil fondunun yaradılması ilə bağlıdır:** "Sosial mənzil fondunun formalaşdırılması aztəminatlı ailələrin mənzil probleminin həlli, tikinti sektorunun dəstəklənməsi ilə yanaşı, əmlak bazarında qiymətlərin tənzimlənməsi baxımdan da əhəmiyyətlidir. Artıq belə fondlar yalnız inkişaf etmiş və etməkdə olan ölkələrdə, o cümlədən qonşu Türkiyədə deyil, həmçinin bir sıra MDB dövlətlərində, eləcə də Rusiyada fəaliyyət göstərir. Sözügedən fond həmin ölkələrdə vətəndaşlara yüngül şərtlərlə mənzilə sahib olmaq imkanı verir".

Onun sözlərinə görə, Azərbaycanda sosial mənzil fondunun yaradılması üçün maliyyə imkanları qonşu ölkələrlə müqayisədə daha yüksəkdir: "Dövlət büdcəsindən ildə 200 milyon vəsaitin ayrılması gənclərin mərhələli şəkildə mənzillə təmin edilməsinə imkan yaradar. Bu vəsait həmçinin mənzil bazarının rentabelliyinin qorunması baxımından təhlükəsizdir. Torpaq sahələri dövlət tərəfindən təmin edilən belə mənzillərin kvadratmetrinin 250 manata başa gələcəyi proqnozlaşdırılır. Hazırda Bakıda 1 kvadaratmetrin "malaaltı" 210 manata başa gəlir, 40 manat isə yaşamaq üçün ilkin şəraitin yaradılmasına - divarın ağardılmasına, döşəməyə örtük çəkilməsinə və sanitariya qovşağının işə salınmasına gedir. Əgər sovet illərindəki kimi yığcam, yəni təxminən 50 kvadratmetrlik mənzillər inşa edilərsə, bu, ildə 16 min yeni mənzil deməkdir. 20 ilə verilən 50 kvadratlıq mənzil üçün ailə ayda maksimum 80 manat ödəməli olar. Dövlət sosial mənzil fondu üçün yeri pulsuz ayırır, tikinti şirkətlərini isə tender əsasında seçir. Bu məsələnin daha bir neçə çox əlverişli tərəfi də var: birincisi, indi xərclənən vəsaitlər 20 il ərzində dövlət büdcəsinə qayıdacaq və bu, indiki yüksək gəlirlərdən gələcək nəsillərin də istifadə etməsinə imkan yaradacaq. İkincisi, mənzil bazarında qiymət artımlarının qarşısı alınır. Bu da hətta sosial mənzil fondundan istifadəyə etməyənlərə də əlverişli qiymətlər ilə mənzil almaq imkanı verir. Üçüncüsü, bu, aztəminatlı ailələri yüksək kirayə haqları ödəməkdən azad edəcək, eyni zamanda kirayə bazarında qiymətləri stabilləşdirəcək. Həmçinin dövlət sifarişləri əsasında mənzil tikintisi regionların proporsional inkişafını təmin edə bilər. Çünki belə fondlar sadəcə paytaxtda deyil, eləcə də regionlarda da formalaşdırılacaq. Beləliklə, Azərbaycan Prezidentinin təşəbbüsü ilə sosial mənzil fondunun formalaşdırılması kimi kifayət qədər əhəmiyyətli sosial layihəyə start verilir. Bu məsələ ilə məşğul olan Maliyyə Nazirliyi bir müddətdən sonra dövlət başçısına hesabat verəcək. Deməli, tezliklə Azərbaycanda sosial evlərə sahib olmaq mümkün olacaq".

❑ RÖYA







# Səbayel İH-də Milli Mətbuatın 140 illiyinə dair tədbir keçirildi

## Asif Əsgərov: "Mətbuatımız cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib"

**İyulun 15-də Səbayel Rayon İcra Hakimiyyətində jurnalistlərlə görüş keçirilib. Milli Mətbuatın 140 illiyi ilə əlaqədar keçirilən tədbirdə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, Azərbaycan Mətbuatı Şurası və 75-dən çox TV, qəzet və elektron informasiya vasitələrinin nümayəndələri iştirak edib.**

Tədbiri giriş sözü ilə açan Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov qonaqları salamlayaraq bildirib ki, bu il artıq 140 illiyini qeyd edən Azərbaycan Milli Mətbuatı böyük və şərəfli yol keçərək bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olub:

"Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib.

Ölkədə medianın inkişafı üçün kifayət qədər şərait yaradılıb. Bundan irəli gələrək 2013-cü il iyunun 22-də məhz Milli Mətbuat Günündə jurnalistlər üçün tikilən yeni 17 mərtəbəli, 156 mənzilli binada mənzillərin paylanması mərasimi keçirilib. Jurnalistlər üçün daha bir binanın tikintisi hazırda başa çatmaq üzrədir".

**İcra başçısı KİV ilə Səbayel Rayon İcra Hakimiyyəti arasındakı sıx əlaqələrdən də danışıb:** "Son 3 il ərzində 2 dəfə KİVDF ilə birgə "Səbayel rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqələri, hər il Milli Mətbuat Günü ərəfəsində müxtəlif mövzularla konfrans, tədbir və görüşlər keçirilib, müsabiqələr vaxtı, həmçinin il ərzində müxtəlif KİV-lərdə royunla bağlı geniş və oxunaqlı materiallar çap olunub".

Daha sonra çıxış edən KİVDF-nin icraçı direktoru Vüqar Səfərli Milli Mətbuatın 140 illiyi ilə əlaqədar ölkədə keçirilən tədbirlər, rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi müddət ərzində görülən işlər və qarşıda duran vəzifələr, fondun keçirdiyi müsabiqələr və onun yekunu barədə danışıb. V.Səfərli jurnalistlər üçün inşa edilən yeni yaşayış binasında işlərin gedişi və istifadəyə veriləcəyi vaxt barədə məlumat verib.

Səbaye RİH İnformasiya təminatı və təhlil sektorunun müdiri İsrafil Kərimov son bir il ərzində RİH tərəfindən mətbuatla bağlı görülən işlərlə əlaqədar analitik hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda jurnalistləri maraqlandıran suallar cavablandırılıb və Milli Mətbuat Günü münasibətilə 75-dən çox KİV nümayəndəsinə Səbayel Rayon İcra Hakimiyyəti tərəfindən hədiyyələr təqdim olunub.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 154 (6182) 16 iyul 2015

**Nazirlər Kabinetinin son toplantısında prezident İlham Əliyev sahibkarlığın inkişafı barədə danışdı. Prezident bir sıra hallarda sahibkarlara qarşı qanunsuz tələblərin irəli sürüldüyünü dedi. O bildirdi ki, sahibkar yalnız dövlətin pulunu verməlidir. Bundan başqa heç kimə bir manat da verməməlidirlər.**

# Zülfüqarlı qardaşları prezidentdən kömək istədilər

## İş adamları illər öncə bizneslərinin əllərindən alınmasına hesablanan proseslə bağlı ölkə başçısına müraciət ünvanladılar



Nurəddin Zülfüqarlı



Loğman Zülfüqarlı

Prezident sahibkarları şəxsən ona məlumat verməyə, məktub yazmağa, müraciət etməyə səslədi. Prezidentin çağırışına Türkiyədə mühacirətdə olan iş adamları Nurəddin və Loğman Zülfüqarlı qardaşları müraciətlə cavab veriblər. Onlar prezidentdən üzləşdikləri qanunsuzluq burulğanından çıxmaqda yardım istəyirlər.

Nürəddin və Loğman Zülfüqarlı qardaşları müraciətlərində qeyd edirlər ki, öz ailə bizneslərini 1993-cü ilə qədər Rusiyada qurublar. Mərhum prezident Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə Azərbaycana dönərək əllərində olan vəsaiti sərmayə kimi istehsal sahələrinə qoyublar. 2002-ci ilin aprel ayında iş adamları ilə görüşü zamanı H.Əliyev "Bakı Elektroştamp" zavodunun özəlləşdirilməsi məsələsini Dövlət Əmlak Komitəsinə tapşırıb, Zülfüqarlı qardaşları açıq tenderdə iştirak edərək tenderin qalibi olublar. 2003-cü ildə isə açıq tenderə çıxarılmış "Bakı Poladtökmə" zavodunun səhmlərinin 96 faizini alaraq, Zülfüqarlılar tenderin qalib olublar. Çökmüş iqtisadiyyatı olan hər iki zavodun işçilərə, dövlətə və müəssisələrə olan borcları ödənilib, müəssisələrə iri məbləğdə sərmayə qoyublar.

Müraciətdə onlar yazırlar ki, investisiya proqramının artıqlaması ilə yerinə yetirilib zavodların fəaliyyəti bərpa edilib, yeni texnologiya və avadanlıqların alınması nəticəsində yüzlərlə insana iş yeri yaradılıb. İşçilərin sosial problemləri sahəsində də xeyli işlər görülüb.

Zavodlar çökmüş vəziyyətdə olmasına baxmayaraq Dövlət Əmlak Komitəsindən yüksək qiymətə alınıb. Komitənin qoyduğu tələblər yerinə yetirilib. Zülfüqarlılar bildirirlər ki, gecə-gündüz çalışıblar, gərgin əmək, sərmayə sərf ediblər və 2005-ci ildən zavodlar gəlirlə işləməyə başlayıb...

Ailənin qara günləri bundan sonra başlayıb. 2005-ci ilin dekabrında Nurəddin Zülfüqarlı Dövlət Əmlak Komitəsinə çağırılıb və komitənin sədr müavini Rüstəm Şahbazov ondan hər 2 zavodu könüllü olaraq təhvil verməsini tələb edib. Rüstəm Şahbazov tələbini bununla əsaslandırıb ki, bu biznesə yüksək vəzifəli dövlət məmuru sahib olmaq istəyindədir. Xoşluqla verilmədiyi halda, zor gücü ilə alınacaq. N.Zülfüqarlı zavodlara 10 milyon dollar məbləğində sərmayə qoyduğunu bildirdikdə, o, Zülfüqarlı qardaşlarını azadlıqdan məhrum olunacaqları ilə hədələyib və həqiqətən də bu baş verib.

Daha sonra qurama ilə üzləşdiklərini yazan Zülfüqarlı qardaşları Afət İsi qızı Əliyeva adlı qadının ortaya çıxdığını diqqətə çatdırırlar. 10 dekabr 2005-ci ildə qadının ərizəsi əsasında Nurəddin və Loğman Zülfüqarlı qardaşları və qeyriləri haqda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən CM-in 182.2.1 və 182.3.2-ci maddələri ilə cinayət işi başlanıb. 1 gün sonra isə Zülfüqarlı qardaşları təqsirləndirilən şəxs kimi cəlb olunub və barələrində həbs-qətimkan tədbiri seçilib. Zülfüqarlılar qadının böhtançı olduğunu və planın onların biznesini əllərindən almağa hesablandığını bildirirlər.

Müraciətdə yazılır ki, onları sorğu-sualsız 4 ay həbsdə saxlayaraq, azadlığın əvəzinə əmlaklarının - "Bakı Poladtökmə" ASC-nin və "Bakıelektroştamp" ASC-nin 80 faizini təhvil verməyi təklif ediblər. Ailə üzvlərinin və çoxsaylı kollektivin müxtəlif instansiyalara şikayətlərinə baxmayaraq, bu heç bir nəticə verməyib.

Dövlət Əmlak Komitəsinin, digər dövlət rəsmilərinin istintaq təcridxanasına tez-tez gəlməsi və Zülfüqarlı qardaşlarını öz əmlaklarını təhvil verməyə məcbur etməsi nəticəsində, istintaq təcridxanasının rəisi və müstəntiqin vasitəsilə 30 mart 2006-cı ildə zor gücü ilə Zülfüqarlı qardaşlarından hər 2 zavod alınıb. Bundan sonra Zülfüqarlı qardaşları həbsdən tam azad edilib, barələrində istintaq olunan cinayət işi əsassız olduğundan, işə 20 iyun 2006-cı ildə xitam verilib. Zülfüqarlı qardaşlarına tapşırılıb ki, hər hansı dövlət orqanına şikayət etməsinlər, əks halda, yenidən problemlə üzləşəcəklər.

Zülfüqarlılar həbsdən azad edildikdən sonra yenidən zavodların fəaliyyətinin bərpasına başlayıblar, 2010-cu ildə Zülfüqarlı qardaşları 1 milyon manat sərmayə qoyub yeni istehsal xəttini quraşdırıblar. Bu istehsal xəttində bütün Qafqazda analoqu olmayan keyfiyyətdə metal materiallar istehsal edilələcəkdi...

2010-cu ilin dekabr ayında həmin xəttin istifadəyə verildiyi "Baku Steel Company" şirkətinin direktoru Rasim Məmmədov Zülfüqarlı qardaşlarının ofisinə gedib. Zülfüqarlı qardaşlarının sahib olduğu - "Bakı Elektroştamp" və "Bakı Poladtökmə" zavodunun səhmlərinin 20 faiz hissəsini və zavodu ona təhvil verməyi, özlərinin isə ölkəni də tərk etmələrini tələb edib. Bunun yüksək vəzifəli dövlət məmurunun göstərişi olduğunu açıqlayıb. Deyib ki, razı olmadıqları təqdirdə Zülfüqarlı qardaşları təkrar azadlıqdan məhrum olunacaq. Onlara məxsus zavoddan 18 milyon manat dəyərində xammal da zorla alınıb mənimsənilib, Zülfüqarlı qardaşları da çarəsiz olduqlarını görüb, ölkəni tərk ediblər.

2011-ci ilin yanvar ayında ölkəni tərk etdikdən sonra Nurəddin və Loğman Zülfüqarlı qardaşları öz hüquqlarının bərpası üçün müxtəlif iddia tələbləri ilə məhkəmələrə üz tutublar...

Yerli məhkəmələrdə ədalətli qərara nail ola bilmədiklərini bildirən Zülfüqarlı qardaşlarının işi hazırda Avropa İnsan Hüquqları Məhkəməsində araşdırılır.

**Zülfüqarlı qardaşları prezidentin müraciətindən sonra bir daha ona müraciət edərək, üzləşdikləri oyundan çıxmaları üçün yardım istəyiblər.**

**E.MƏMMƏDƏLİYEV**

# Dilqəm Əsgərovun yeni şok görüntüsü

## Kəlbəcərdə girov götürülən vətəndaşımıza işgəncə verildiyini təsdiqləyən video ortaya çıxdı







**Kəlbəcərə yaxınlarının məzarını ziyarətə gedərkən girov düşən Dilqəm Əsgərov və Şahbaz Quliyevin "məhkəmə" prosesi zamanı lentə alınan yeni görüntüsü ortaya çıxıb. Dilqəm Əsgərovun oğlu Kürdoğlu ANS PRESS-in redaksiyası ilə əlaqə saxlayaraq sözügedən videomaterialı təqdim edib. Onun sözlərinə görə, bu videoda ermənilərin gizlətməyə çalışdığı bəzi məsələlər gün üzünə çıxıb.**

Atasının "məhkəmə" zalına axsayaraq girdiyini deyən Kürdoğlu Dilqəm Əsgərova işgəncə verildiyini düşünür. Görüntü AzadlıqRadiosunun İrəvan bürosu tərəfindən çəkilib. Kürdoğlunun fikrincə, bu çəkiliş təxminən 1-2 ay öncə qeydə alınıb: "Videodan aydın olur ki, mənim atam axsayaraq gəzir. Görünür, ona qarşı qəddar davranırlar. Mən onun səhhətinin yaxşı olduğuna inanmıram. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) bizə verdiyi məktubda yazılır ki, hər şey qaydasındadır. Ancaq mən bu deyilənlərə şübhə edirəm".

Beynəlxalq Qızıl Xaç Komitəsindən isə bildirilir ki, komitə baş çəkdiyi şəxslərin sağlamlıq durumu ilə bağlı məsələləri ictimaiyyətə açıqlamır.

Ancaq kadrlardan göründüyü kimi, Dilqəm Əsgərov bir əli ilə ayağını tutur və axsayaraq, çətinliklə gəzir. Bu görüntülər Ermənistan tərəfinin beynəlxalq normaları və insan hüquqlarını kobud şəkildə pozduğunun əyani sübutudur. Bir ildən çoxdur ki, öz doğma torpaqlarında həbs olunan azərbaycanlılara qarşı işgəncələrin edilməsi şəkillərdən də məlum olur.

**"Mən atamla görüşmək istəyirəm. Bu, mənim ən təbii haqqımdır". Bunu Dilqəm Əsgərovun oğlu Kürdoğlu söyləyib. O bildirib ki, artıq iki ay əvvəl Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət edib:** "Müraciətimə baxmayaraq onlar hələ də mənim istəyimə konkret cavab verməyiblər. Hə, yaxşı deyirlər, ancaq hələ də bir nəticə əldə olunmayıb".

Atasının səhhəti ilə bağlı narahat olduğunu söyləyən Kürdoğlu lazım gələrsə, atasının yanına gedə biləcəyini də söyləyib.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr departamentinin müdiri İlahə Hüseynova ANS PRESS-ə açıqlamasında bu məsələyə münasibət bildirib.

O söyləyib ki, BQXK girovların ailə üzvləri ilə yalnız məktub vasitəsilə əlaqə yaradır.

**İ.Hüseynova digər kommunikasiya vasitələrindən istifadə etmək üçün qarşılıqlı razılaşdırma lazım olduğunu diqqətə çatdırıb:** "Bizə müraciət olunursa, o zaman qarşı tərəfə məlumatı çatdırırıq. Ancaq digər vasitələrlə ailə üzvlərinin əlaqəsini təşkil etmək yalnız razılaşdırılmış şəkildə olmalıdır".

Kəlbəcərdə öz doğma ata-baba torpaqlarına baş çəkən Dilqəm Əsgərov və Şahbaz Quliyev təxminən 1 il öncə girov götürülüb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Amerikalı həmsədrin "Azərbaycan əraziləri qaytarılmalıdır" açıqlamasının pərdəarxası

## Müdafiə nazirinin ermənilərə zərbələr endirilməsi haqda göstərişi cəbhədə yeni vəziyyət yaradacaq; ekspertlərdən maraqlı şərhlər...



**Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində müşahidə olunan gərginliyin davam etməsi, bölgədə artan müharibə riskləri "turist səfərləri" ilə vaxtaşırı gündəmə gələn ATƏT-in Minsk Qrupunun həmsədrlərini yenidən hərəkətə gətirib. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, Ceyms Uorlik (ABŞ), Pyer Andrye (Fransa) və İqor Popov (Rusiya) iyulun 20-21-də regiona səfər edəcək.**

Səfərdən öncə amerikalı həmsədrin sülhə yönəlik açıqlamalar verməsi, həmçinin Azərbaycan ərazilərini işğaldan azad etməyə çağırış etməsi Vaşinqtonun müharibə təhlükəsini nəzərə almasının əlaməti kimi xarakterizə oluna bilər. **"İşğal olunmuş ərazilər kompleks nizamlanma çərçivəsində Azərbaycanın nəzarəti altına qaytarılmalıdır"**, - deyə Uorlik "Vedomosti"yə müsahibəsinə deyib. Ardınca bildirib: **"Ərazilər qaytarılmalıdır, lakin digər amillər də var. Ona görə də biz həmişə kompleks nizamlanmadan danışırıq".**

Bundan öncə ABŞ Senatının Dağlıq Qarabağ ermənilərinə maliyyə yardımı göstərməkdən imtina etməsi də yeni vəziyyətin yaranması kimi xarakterizə edilir. **Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** deyib ki, ABŞ-ın qanunverici orqanı tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin qurbanları"na yardım edilməsi məsələsi uzun müddətdir ABŞ tərəfi ilə müzakirə edilir və bununla əlaqədar Azərbaycanın narahatlığı və narazılığı ABŞ tərəfinə daimi olaraq çatdırılır. H.Hacıyev bildirib ki, bu maddə ilə təxsis olan vəsait əsasən humanitar mina təmizlənməsinə sərf olunur: **"Məhz buna görə də Ermənistan tərəfi ABŞ-da olan erməni lobbisinin bütün imkanlarını səfərbər edərək bu ifadəni "Victims in Nagorno-Karabakh" formasında dəyişdirməyə çalışır. İngilis dilində anlayışı olanlar bu fərqi yaxşı başa düşürlər. Ümumiyyətlə isə qeyd edilməlidir ki, son bir neçə ildə ABŞ Konqresi bu bənd altında hər hansı yardım ayırmayıb".**

Bakı ilə Pentaqon arasında əməkdaşlığın bərpa olunması barədə rəsmi xəbərlərin də bu ərəfədə yayılması Vaşinqtonun Azərbaycanı maksimum incitməməyə çalışdığını deməyə əsas verir. Belə bir ərəfədə ABŞ diplomatının Azərbaycan ərazilərini qaytarmağa yönəlik çağırış etməsi müəyyən ümidlər yaradır.

***

"ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona gözlənilən növbəti səfəri zamanı hər hansı bir irəliləyişin olacağına inamım yoxdur. Bu səfər də onların əvvəlki səfərlərindən fərqlənməyəcək". Bunu isə **Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin rəhbəri Bayram Səfərov** deyib. (APA) B. Səfərov qeyd edib ki, sülhməramlı qüvvələr yalnız Azərbaycan-Ermənistan sərhədinə yerləşdirilə bilər: "Azərbaycanın torpaqlarında, Dağlıq Qarabağda sülhməramlı qüvvələrin yerləşdirilməsinə ehtiyac yoxdur. Çünki bura Azərbaycan torpaqlarıdır".

**Politoloq Elxan Şahinoğlu da nikbin deyil:** "Amerikalı həmsədr Ceyms Uorlik ilk dəfə deyil ki, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması vacibliyindən danışır. Doğrudur, bunu deyərkən torpaqların azad olunmasını bütöv razılaşmanın tərkib hissəsi kimi göstərir. Bütöv razılaşmada isə referendum və digər bu kimi təhlükəli bəndlər də yer alacaq və bu bizim maraqlara uyğun deyil. Ancaq Uorlikin "ətraf rayonlar boşaldılmalıdır" fikrini səsləndirməsinin özü Vaşinqtonun Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın haqlı maraqlarına diqqət göstərdiyinin təcəssümüdür. Uorlik Dağlıq Qarabağ separatçılarının həbsdə saxladığı 2 azərbaycanlının girovluqdan azad olunmasının vacibliyini də bir neçə dəfə səsləndirib. Bu isə o deməkdir ki, amerikalı diplomat 2 azərbaycanlının həbsinə "əsas" göstərilən ittihamın saxta olduğuna işarə vurur".

**Ekspertə görə, Vaşinqtonun bu yanaşmasını qiymətləndirmək lazımdır:** "Ancaq hələ ki Azərbaycan rəsmilərindən Uorlikin bu açıqlamalarına reaksiya görməmişəm. Halbuki rəsmi reaksiya ilə Uorlikin açıqlamalarının həyata vəsiqə qazanması gərəkliyi bir daha xatırladıla bilərdi. Uorlikin bölgəyə sülhməramlı qüvvələrin yerləşdirilməsiylə bağlı fikri də yerindədir. Münaqişənin həllinin hansısa mərhələsində bölgəyə sülhməramlı qüvvələr yerləşdiriləcək. Bu bizə də lazımdır ki, Dağlıq Qarabağa qayıdan azərbaycanlılar özlərini təhlükəsiz hiss etsinlər. Ancaq sülhməramlılar məsələsində bir neçə variant mümkündür: Birinci variant odur ki, sülhməramlılar yalnız Rusiyanın silahlı qüvvələrindən ibarət olacaq. Moskva və İrəvan məhz buna çalışırlar. İkinci variant odur ki, Türkiyə də bu prosesdə aktiv iştirak edir və sülhməramlılar həm rus, həm dər türk əsgər və zabitlərindən ibarət olur. Üçüncü variant isə ondan ibarətdir ki, həmsədr dövlətlər maraqlı tərəflər kimi sülhməramlı qüvvələrin tərkibində iştirak etmirlər. Yəni sülhməramlılar Polşa, Norveç və digər neytral ölkələrin silahlı qüvvələrindən ibarət ola bilər".

**E.Şahinoğlu xatırlatdı ki, elə əvvəlki illərdə də bununla bağlı konsensus əldə olunmuşdu:** "Aydındır ki, birinci variant bizim maraqlara uyğun deyil. Dağlıq Qarabağ elə vaxtilə məhz orada yerləşən sovet və rus hərbi birlikləri hesabına işğal olunmuşdu. Eyni səhvi təkrarlamaq bizə baha başa gələr. İkinci dəfə də Rusiya hərbi maşınının təkbaşına Dağlıq Qarabağa daxil olmasına yaşıl işıq yandırsaq, onlar oradan çıxmayacaq. O biri variantlar bu və ya digər dərəcədə bizim maraqlara uyğundur. ABŞ da istəməz ki, Rusiya ordusu təkbaşına Dağlıq Qarabağda var olsun. Deməli, bu məsələdə Bakı ilə Vaşinqtonun maraqları üst-üstə düşür. Odur ki, elə tək bu faktın özü Bakı ilə Vaşinqton arasında yaxınlaşmanı və geniş dialoqu zəruri edir".

***

Bu arada Azərbaycanın müdafiə naziri Zakir Həsənov yaşayış məntəqələrinin ermənilər tərəfindən atəşə tutulması halında atıcı silahların əhatə dairəsindən uzaq olan düşmən mövqelərinə, erməni əhalinin sıx yerləşdiyi yaşayış məntəqələrinə və oradakı hərbi obyektlərə Azərbaycan ordusunun sərəncamındakı iriçaplı silahlardan dərhal zərbə endirilməsi barədə xüsusi tapşırıq verib. Ekspertlər deyir ki, nazirin ermənilərə zərbə endirilməsi tapşırığı Qarabağ cəbhəsində yeni vəziyyət yaradacaq və hər an böyük savaş başlaya bilər. Lakin bu halda Rusiya Ermənistan kəndlərinin atəşə tutulması halında müdaxilə edə bilərmi-sualı ortaya çıxır.

"Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun son bəyanatı düşmən tərəfin bir az özünü yığışdırmaq məqsədi ilə verilmiş xəbərdarlıq kimi qəbul edilməlidir. Şəxsən mən inanmıram ki, bizim hərbçilər bədnam qonşularımızın mülki əhalisi yaşayan məntəqələrini atəşə tutsunlar".



Elxan Şahinoğlu



Üzeyir Cəfərov

**Hərbi ekspert Üzeyir Cəfərov bu fikirdədir. Onun sözlərinə görə, söhbət sırf düşmənin təxribatı nəticəsində bizim mövqelərə açılan atəşlərin susdurulmasından gedir:** "Ermənistan Silahlı Qüvvələri bir çox hallarda kəmfürsətlik edərək öz ərazilərindən bizim mövqelərimizi hədəfə alırlar. Əgər sabah düşmən tərəfi belə halları davam etdirəcəksə, bizim başqa yolumuz da qalmayacaq. Ordumuz ən sərt addımları atmağa məcbur olacaq. Bunun da məsuliyyətini birbaşa Ermənistan SQ və onların fitnə-fəsadına göz yuman ATƏT-in Minsk Qrupunun həmsədrləri və digər beynəlxalq qüvvələr daşıyacaq. Hər şeyin bir səbir həddi var. Son vaxtlar ermənilərin atıcı silahlarının "rəngarəngliyi" də artıb. Əgər əvvəllər sadəcə avtomat və pulemyotlardan istifadə olunurdusa, indi həyasızlaşıb minaatan və bəzi yerlərdə də artilleriya mərmilərindən istifadə edirlər. Onlar unutmamalıdırlar ki, bizim imkanlarımız bu gün o səviyyədədir ki, qarşı tərəfdə olan istənilən hərbi obyektləri məhv edək. Məhz buna görə də düşmənin bir az "qazını" azaltmaq üçün müdafiə naziri belə bir sərt xəbərdarlıq edib". **O ki qaldı Azərbaycan ordusunun atacağı addımlara görə Rusiyanın münasibətinə, Ü.Cəfərov düşünmür ki, bu, bəyanatlardan, narahatçılıqdan o yana keçsin:** "Bir də, məncə, bu rus xofundan qurtulmağın vaxtı çoxdan çatıb axı. Biz işğal altında qalan öz ərazimizin davasını aparırıq. Bizə yol göstərmək əvəzinə yaxşı olardı ki, aparıcı dövlətlər - ABŞ, Rusiya və Fransa işğalçı Ermənistanı beynəlxalq hüquq və normalara hörmət göstərməyə dəvət edəydilər".

**Ekspertin fikrincə, müdafiə nazirinin ordu birliklərinə erməni təxribatlarına "vur" əmri verməsi yerindədir:** "Düşmən bizi ona görə Tovuz və Qazax istiqamətində vurmağa çalışır ki, sanki bizə xəbərdarlıq mesajı göndərir. Yəni biz Dağlıq Qarabağda hücum əməliyyatı planlaşdırsaq, onlar bizə Dağlıq Qarabağdan kənar - sərhədboyu ərazidə problem yaradacaqlar. Bu da bir növ bizi işğal altındakı rayonları azad etmək planından çəkindirməlidir. Ancaq Zakir Həsənovun "vur" əmri ilə eyni problemi biz də Ermənistana yaşada bilərik. Əgər işğalçı dövlət Tovuz, Qazax, Gədəbəy və Dağlıq Qarabağla sərhəddə yerləşməyən bölgələrdə bizə problem yaradacaqsa, mülki əhalini hədəf alacaqlarsa, elə həmin istiqamətlərdə onların itkiləri bizdəkindən bir neçə dəfə çox olmalıdır. Bu, bizə ona görə lazımdır ki, işğalçı anlasın ki, Dağlıq Qarabağdan kənarda da onu ciddi problem gözləyəcək. Və onu da anlamalıdırlar ki, bu istiqamətlərdə bizə yaradılan problemlər Azərbaycanı işğal altındakı rayonları boşaltmaq istəyindən çəkindirməyəcək. Münaqişə bölgəsi Dağlıq Qarabağdır və məsələ bu ərafda həll olunmalıdır, yox, əgər Ermənistan müharibəni daha geniş məkana yaymaq istəyəcəksə, bizim genişmiqyaslı müharibəyə başlamaqdan başqa alternativimiz qalmayacaq".

**Ü.Cəfərov Ermənistan daxilindəki qarışıqlığın arxa plana keçirilməsi üçün Sərkisyan rejiminin müharibəni alovlandıracağı barədə ehtimallara da münasibətini açıqladı:** "Təsadüfi deyil ki, prezident Serj Sarkisyanın əlaltısı sayılan müdafiə naziri Seyran Ohanyan dərhal cəbhə bölgəsinə gəldi və işğalçı ordunun zabit və əsgərlərinə bəzi təlimatları çatdırdı. Sözsüz ki, Ermənistan hiss edir ki, vəziyyət onlar üçün heç də ürəkaçan deyil. Hər mənada. Daxildə etiraz aksiyaları, xaricdə bir sıra ciddi hadisələr onların yuxusuna haram qatıb. Ən çox ümid bəslədikləri Rusiya tərəfindən hərbi əməliyyatlar başlayacağı təqdirdə hansı şərtlər çərçivəsində Sərkisyan və komandasına dəstək ola biləcəkləri sfera onları əsla qane etmir. Hətta son etiraz aksiyaları fonunda Ermənistanda Rusiyanın necə seçim etdiyi də açıq şəkildə hiss edilməkdədir. Dünya birliyi də artıq ermənilərin vay-şivəninə, hay-həşirinə əvvəlki illərdə olduğu kimi çox inanmır. Qafqaz kimi vacib bir regionda Azərbaycanın üç Cənubi Qafqaz respublikalarından biri kimi bütün sahələrdə öz sözünü daha ötkəm, daha prinsipial şəkildə, ən əsası isə müstəqil şəkildə deməyi bacaran bir qüvvəyə çevrildiyinin fərqində olanların sayı da artmaqdadır. Ona görə də Ermənistanın ağır günlərinin çox da uzaqda olmadığı haqqında bəzi mülahizələr və fikirlər söylənmək olar".

**Ü.Cəfərov zənn edir ki, Rusiya bu dəfə Qarabağ savaşının başlayacağı təqdirdə 90-cı illərdə olduğu kimi proseslərə müdaxilə etmək iqtidarında olmayacaq:** "Bu, birmənalıdır. Diplomatik formada ola bilsin ki, hansısa isterik bəyanatlar, narahatlıqlar və sair olsun. Amma şəxsən mən inanmıram ki, rus əsgəri rəsmi qaydada gəlib Azərbaycanın beynəlxalq miqyasda tanınan ərazilərində əlində silah ermənilərin əvəzində vuruşsun, həyatını qurban versin".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

## Siyəzəndə mağaza partladı; 1 nəfər yaralandı

**Siyəzən şəhərində vətəndaşa məxsus ümumi sahəsi 12 kvadratmetr olan mağazada yanğınla nəticələnən partlayış baş verib. Nəticədə mağazada olan 40 litrlik qaz balonundan ikisi partlayıb, mağazanın bir divarı uçub və yanar konstruksiyaları yanıb. Mağazada olan qaz balonları və bitişik obyektlər yanğından mühafizə olunub.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, mağazanın sahibi, 1969-cu il təvəllüdlü Atakişiyev Sadiq Mühü oğlu müxtəlif yanıq xəsarətləri ilə Siyəzən Regional Diaqnostika Mərkəzinə yerləşdirilib. Ona üzün və hər iki qolun birinci və ikinci dərəcəli yanığı diaqnozu qoyulub. Hadisənin başvermə səbəbləri araşdırılır.

## Xaçmazda silsilə oğurluqlar edən şəxs tutuldu

**Xaçmazda silsilə oğurluqlar edən şəxs tutulub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 3-də şəhər sakini Adil Mirzəbəyovun evindən 1040 manat oğurlayan şəhər sakini, əvvəllər məhkum olunmuş Eyvaz Paşayev tutulub.**

Ətrafında aparılan əməliyyat tədbirləri ilə onun Əlfəddin Həmidov, Natiq Babayev, Mirvari Əsədullayeva və İqrar İsmayılova məxsus evlərdən pul və qızıl əşyalar oğurlaması da müəyyən edilib.

## Yağış yağacaq, temperatur 4-8 dərəcə enəcək

**İyulun 16-sı gündüzdən ikinci ongünlüyün sonunadək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimal-qərb küləyinin ayrı-ayrı yerlərdə arabir güclənəcəyi, şimşək çaxacağı, fasilələrlə yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli olacağı gözlənilir. Bu barədə «Trend» Ekologiya və Təbii Sərvətlər Nazirliyinin facebook səhifəsinə istinadən məlumat verib. Havanın temperaturu tədricən 4-8 dərəcə aşağı enəcək.**

## "Lada" yolun kənarında dayanan maşına çırpıldı; 5 yaralı

**Bakıda yol qəzası qeydə alınıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, iyulun 14-də saat 13 radələrində Sabunçu rayonunda Bakı şəhər sakini Elmar Əsədov idarə etdiyi "Lada Priora" markalı avtomobili yolun kənarında dayanan, Əhməd Qurbanova məxsus "Daf" markalı avtomobilə vurub. Nəticədə E.Əsədov və 4 sərnişini xəstəxanaya yerləşdirilib. Sabunçu Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## 18 yaşlı gənc kanalda boğuldu

**Beyləqanda 18 yaşlı gənc su kanalında boğulub. «Trend» Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən xəbər verir ki, FHN-in "112" qaynar telefon xəttinə daxil olmuş məlumata əsasən, Xan qızı kanalının Beyləqan rayonu, Əmirzeyidli kəndi ərazisindən keçən hissəsində, ən yaxınlıqdakı xilasetmə məntəqəsindən 110 km aralı, nəzarətsiz ərazidə 1997-ci il təvəllüdlü Məmmədov Əmrah Adəm oğlunun suda batması haqqında məlumat daxil olub. Ə.Məmmədovun cəsədi batdığı yerdən 15 metr aralıda, "Səlyan" dalğıc axtarış qrupunun xilasediciləri tərəfindən tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.**

## Bakıda daş karxanasında bədbəxt hadisə baş verib

**Bakıda daş karxanasında bədbəxt hadisə baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Qazax rayon sakini Aydın Məmmədov Qaradağ rayonunun Korgöz qəsəbəsində yerləşən daş karxanasında ehtiyatsızlıqdan daşkəsən qurğuya düşüb. Nəticədə o, çoxsaylı bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib.**

A. Məmmədov həmin daş karxanasında işləyir. Hadisə iyulun 14-də saat 01.00 radələrində baş verib.



## Lənkəranda iki yük maşını toqquşub, ölən və xəsarət alan var

**Lənkəranda ağır yol-nəqliyyat qəzası baş verib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə iyulun 15-də saat 14.30 radələrində Ələt-Astara magistralının 182-ci kilometrliyində - rayonun Qumbaşı kəndindən keçən hissəsində qeydə alınıb. İki ağır tonnajlı yük maşınının toqquşması nəticəsində sürücülərdən biri ölüb, digəri isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə Lənkəran Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.**

Qəzadan sonra magistral yol iki saatadək bağlı olub. Hadisə yerinə cəlb olunan yol polisi əməkdaşlarının səyləri nəticəsində yolda nəqliyyatın hərəkəti bərpa olunub.

Ölən sürücünün meyiti isə Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzinin xilasediciləri tərəfindən deformasiyaya uğramış maşından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırmalara başlanıb.


### Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**

**(055) 206-14-61,**

**(070) 335-90-15,**

**(050) 371-01-60**




### Təbrik

**Əzizimiz Zəhra!!!**

**Səni 1 yaşının tamam olması münasibətilə ürəkdən təbrik edirik. Sənə ən əsası cansağlığı, uzun ömür, xoşbəxtlik, dop-dolu sevgi, məhəbbət arzulayırıq. Ulu Tanrı ömrünə ömür, sevincinə sevinc qatsın. Atdığın hər addım sənin həyatına uğur gətirsin. Gözlərində daima sevinc qığılcımları parlasın. Sevinc başının tacı, kədər ayağının tozu olsun.**

**Bu arzular, səni qanadına alıb ən uca zirvələrə qaldırsın və yenilməz olasan! Ad günün mübarək!**

**Zəhrasevərlər adından qardaşı Elbrus və bacısı Sevil!!!**

## Bakıda saxta nömrəli maşın saxlanıldı

**Bakıda saxta dövlət qeydiyyat nömrə nişanı ilə idarə olunan avtomobil saxlanılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən «Trend»ə verilən məlumata görə, DİN Növbətçi Hissələri İdarə Xidmətinin Təhlükəsizlik Şəhər Xidməti, DİN Çevik Polis Alayı və Yasamal RPİ 29-cu PB əməkdaşlarının apardıqları birgə tədbirlər nəticəsində iyulun 13-ü saat 22 radələrində R.Feyzullayevə məxsus "Toyota" markalı avtomobildən oğurlanmış dövlət qeydiyyat nişanları üzərində olan "KIA Cerato" markalı avtomobil Yasamal rayonunda aşkar edilib.**

Qeyd edilən avtomobilin Bakı şəhər sakini Ədalət Əsgərova məxsus olması müəyyən edilib. Avtomobilin yük yerinə baxış zamanı bir ədəd tranzit və başqa avtomobilə aid dövlət qeydiyyat nişanları da aşkar edilib.


*Əyləncəli, sürətli, asan!*




# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



### Elan

**Əhmədov Nazim Davud oğlunun adına Ağdam RRS tərəfindən verilən şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# 2 yaşlı Oda Teatrı festival keçirir

## Elmin Bədəlov: "Tamaşaya yalnız kişilər gəlmişdi"

**İki yaşını qeyd edən Oda Teatrı eyni zamanda 3-cü mövsümünü açıq elan edib. Bununla əlaqədar olaraq teatrın rəhbəri Elmin Bədəlov iyulun 15-də mətbuat konfransı keçirib. O, öncə teatrın yaranması və fəaliyyəti haqda iştirakçılara qısa məlumat verib.**

**Elmin Bədəlov** ssenarist, yazıçı çatışmazlığından gileylənib: "Diqqət etsəniz görərsiz ki, tamaşaların əksəriyyəti xarici dramaturq və yazıçılarındır. Dəfələrlə yerli yazıçılara müraciət etmişik. Lakin hələ ki bir nəticə yoxdur. Müraciət etdiklərimizin arasında yalnız Mövlud Mövlud səsimizə səs verib. Hazırda o, yeni bir ssenari üzərində işləyir".

**E.Bədəlov teatrın qastrol səfərlərindən də danışıb:** "Bir il ərzində teatrımız iki qastrol səfərində olub. İlk səfərimiz Biləsuvar rayonunun Nərimankənd adlı kəndində baş tutdu. Teatrın truppası üçün ucqar bir kənddə tamaşa təqdim etmək çox maraqlı idi. Doğrudur, kənd yeri olduğundan tamaşaya yalnız kişilər gəlmişdi. Lakin tamaşa çox bəyənilmişdi. Daha sonra isə Şəkiyə getdik. Şəkinin ucqar bir qəsəbəsində üç gün tamaşa verdik. Yerli sakinlər hər dəfə tamaşaya təkrarən gəlib maraqla tamaşa edirdilər. Son aldığımız məlumata görə, bizim tamaşalardan təsirlənərək Biləsuvarda yeni teatr yaranıb. Hətta Şəkidə də yeni teatr yaranacağı barədə ideyalar var.

Teatrımız məktəblilərin də görüşünə gedir. Biz vaxtaşırı məktəblərdə görüş keçirib öz tamaşalarımızı təqdim edirik. Hər dəfə ən azı 300 şagird tamaşalara gəlir".

**Teatr rəhbəri daha sonra qarşıdakı 3-cü mövsümün açılışı ilə əlaqədar yaradıcılıq fəaliyyətlərindən söz açıb:**

"Teatrın həm 2 yaşı, həm də 3-cü mövsümün açılışı ilə əlaqədar olaraq 5 günlük festival gerçəkləşəcək. Festival 15-19 iyul tarixlərində həyata keçməlidir. Festival çərçivəsində gürcüstanlı həmkarlarımızla də iş birliyimiz olacaq. Bildirim ki, bundan sonrakı fəaliyyətimizdə yeniliklər edəcəyik. Belə ki, teatrın digər truppaları yaradılacaq".




Xatırladaq ki, Oda Teatrı bir qrup gənc tərəfindən yaradılıb və yarandığı ilk vaxtlarda müxtəlif məkanlarda tamaşalar göstərib. Daha sonra Topçubaşov 38 ünvanında yerləşən zirzəmidə məskunlaşan teatr Azərbaycanda ilk zirzəmi teatrı olaraq fəaliyyətini davam etdirib. Fəaliyyəti dövründə bir neçə problemlə üzləşən teatr hətta bir müddət fəaliyyətini dayandırıb. Hazırda teatr Dilarə Əliyeva 141 ünvanında yerləşir. Teatrın rəhbəri Elmin Bədəlov, rejissoru İmam Həsənov, teatrın aktyorları isə İlqar Cahangir, Rauf Şahsuvarov, Elmin Bədəlov, Nihad Qulamzadə, Aynur Zərrintac, Niyaz İlyasoğludur.

Bugünlərdə gerçəkləşəcək teatrın festival proqramını təqdim edirik:

*15 iyul saat 21:00-da - 2 yaş party - Hiss Club-da*

*(Ünvan: Hiss Club) - Giriş sərbəstdir*

*- 16 iyul saat 19:00-da - 3-cü mövsümün açılışı: "Arzular bağı" tamaşası əməkdar artist İlqar Cahangir və aktyor Rauf Şahsuvarovun ifasında. Rejissor İmam Həsənov*

*(Ünvan: Oda Teatrı // Dilarə Əliyeva 141) - Giriş: 5 AZN*

*- 17 iyul saat 20:00-da = Vüsal Tağı-Zadə (tar) və Nicat Məmmədlinin (pianino) konserti. Qonaq: Şəbnəm Abdullazadə (kamança)*

*(Ünvan: Oda Teatrı) - Giriş: 5 AZN*

*- 18 iyul saat 19:00-da = Gürcüstan Dövlət Pantomima Teatrının tamaşası*

*(Ünvan: Oda Teatrı) - Giriş: 8 AZN*

*- 19 iyul saat 13:00-da - Gürcüstan Dövlət Pantomima Teatrının mətbuat nümayəndələri və tamaşaçılarla görüşü*

*(Ünvan: Oda Teatrı) - Giriş: sərbəstdir*

*- 19 iyul saat 19:00-da = Gürcüstan Dövlət Pantomima teatrının tamaşası*

*(Ünvan: Oda Teatrı) - Giriş: 8 AZN*

❑ **Xalidə Gəray**

# Ümumdünya Səhiyyə Təşkilatından şok açıqlama

## "Dünyada hər 10 nəfərdən birinin ruh sağlığı yerində deyil"

**Ümumdünya Səhiyyə Təşkilatı dünyada hər 10 nəfərdən birinin ruh sağlamlığının yerində olmadığını açıqlayıb. ÜST-nin yaydığı "2014-cü ilin ruh sağlığı atlası" ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə Ofisində təşkil edilən mətbuat konfransında çıxış edən ÜST-nin Ruh Sağlığı Bölməsinin nümayəndəsi Fahmi Hanna dünyada səhiyyə işçilərinin yalnız 1 faizinin ruh sağlamlığı ilə bağlı xidmət verdiyinə diqqəti çəkib.**

Hanna dünyada orta hesabla hər 10 min adama, aşağı və orta gəlirli ölkələrdə isə hər 100 min adama bir ruhi xəstəlikləri üzrə mütəxəssis düşdüyünü açıqlayıb.

2014-cü ilin ruh sağlığı atlasına görə, az inkişaf etmiş ölkələrdə adambaşına düşən illik ruh sağlığı xərci 2 dollardan az olduğu halda, inkişaf etmiş ölkələrdə bu xərclər 50 dollardan yuxarıdır.

"Dünyada təxminən hər 10 adamdan birinin ruh sağlamlığında problem var" xəbərdarlığı verən hesabatda qeyd edilir ki, hər il 900 min adam intihar edir və gənclər arasında ən çox yayılan ikinci ölüm səbəbi intiharlardır.

Hər 4 nəfərdən birinin həyatlarının müəyyən dövründə ruhi pozğunluq keçirdiyinə və ruh sağlığında ciddi problemlər olan hər 4 nəfərdən 3-nün heç bir müalicə almadığına diqqəti çəkən hesabatda 2030-cü ilə qədər depressiyanın xəstəliklər arasında ilk sıraya çıxacağı və qlobal bir böhran şəklini alacağı ilə bağlı xəbərdarlıq edilib.

❑ **NƏRGİZ**

# Meyvə və tərəvəzlərin vitamin dəyərini artıran önəmli məsləhətlər...

**Meyvə və tərəvəzlərin tərkibindəki bəzi vitaminlər suda tez həll olur. Bu səbəbdən də həmin bitkiləri gur axan suyun altında uzun müddət yumaq olmaz. Sürətli axan su, meyvələrdə və tərəvəzlərdə vitamin itkisinə səbəb olaraq, yeməklərin qida dəyərini düşürür.**

Bundan əlavə, tərəvəzləri tam halda, doğramadan suya salıb yumaq lazımdır. Doğrayıb suya salındığında vitamin dəyəri azalır. Eyni şəkildə tərəvəzlər bişirilirkən qazana çox su əlavə edilməməlidir. Tərəvəzlər, az su ilə ya da buxarda bişirilməlidir.

Tərəvəzlər bişirilərkən soda əlavə edilmədən bişirilməlidir. Çünki bişirmə əsnasında əlavə edilən soda tərəvəzlərə daha yaşıl rəng qazandırmaqla birlikdə vitamin itkisinə də səbəb olur.





Tərəvəzlər bişirilmədən dərhal öncə, mümkünsə əllə bölünməli və ya bıçaqla kəsilməlidir. Tərəvəzləri kiçik parçalar şəklində bölmək və ya kəsmək onun səthini artırır və nə qədər səthi çox olarsa, vitamin itkisi bir o qədər çox olur.

Meyvə və tərəvəzlər mümkün olduqca, qısa müddətdə və diriliyini qoruyacaq şəkildə bişirilməlidir. Çünki B və C vitamini kimi vitaminlər istinin təsiri ilə asanca yox olurlar.

İspanaq, gül kələmi, kələm, badımcan və balqabaq kimi tərəvəzlər ən çox 10 dəqiqə bişirilməlidir. Məsələn, paxlanı 20 dəqiqə bişirmək kifayətdir

Meyvə və tərəvəzlər bişirilirkən qazanın qapağını qapalı saxlamaq lazımdır. Çünki bu şəkildə buxar itməz və yeməyin bişmə müddəti qısalar.

Tərəvəzlərin, makaronun və paxlalı bitkilərin bişdiyi suyu atmayın. Həmin suyu şorbalara, yeməklərə və ya souslara əlavə etmək yeməklərin qida dəyərini artırır.

Yağlar uzun müddət yüksək temperatura məruz qaldıqda, insan səhhətində zərərli maddələr əmələ gəlir. Ərzaqların yüksək temperaturda qızardılaraq, yeyilməsi sağlamlıq baxımından zərərlidir.

Bundan əlavə, həmin yeməklərdən çox istifadə etmək piylənməyə səbəb olur və ürək-damar xəstəliklərinə tutulma riskini artırır.

❑ **Nərgiz LİFTİYEVA**

# Bələdiyyə sədri və onun müavini pul üstündə tutaşdılar

**Azərbaycanda bələdiyyə sədri ilə onun müavini küçənin ortasında yumruqlaşıb. Avropa.info xəbər verir ki, iyulun 13-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsi üzrə bələdiyyə sədri İman İbrahimov və müavini Məhəmmədəli Zeynalov arasında qəsəbənin mərkəzində yumruq davası yaşanıb.**

Hadisə şahidlərinin avropa.info-ya verdikləri məlumata görə, Bəhrəmtəpə qəsəbəsinin bələdiyyə sədri İman İbrahimov və onun müavini Məhəmmədəli Zeynalov arasında baş verən dava bələdiyyə vergisi üçün yığılan pulun bölünməsi zamanı baş verib. Bələdiyyə vergisi üçün yığılan pulları bölüşdürə bilməyən bələdiyyə sədri İman İbrahimov və onun qardaşları bələdiyyə müavini Məhəmmədəli Zeynalova hücum çəkib. Xəsarət alan Z.Məhəmmədəli polisə şikayət ərizəsi ilə müraciət edib.

YENİ MÜSAVAT

Son səhifə

N 154 (6182) 16 iyul 2015

# Facebooka girdi, ərinin evləndiyini öyrəndi



**Dünyanın ən qəribə xəyanət hekayəsi bu cütlüyə məxsusdur. Belə ki, İngiltərədə yaşayan Lisa Kurran 25 ildir evli olduğu həyat yoldaşının başqa bir qadınla evli olduğunu öyrənib. Özü də facebook vasitəsilə. Ərinin açıqlamalarına inanmayan qadın çox keçmədən həqiqəti öyrənib və bütün həyatı alt-üst olub.**

Lisa ərinin həmin qadınla evlənən zaman çəkdirdiyi toy şəkli ilə facebook sosial şəbəkəsində qarşılaşıb. Həyat yoldaşından şəkil haqqında soruşduqda əri ona keçmiş sevgililərindən birinin onu narahat etdiyini və saxta şəkil düzəltdirib facebookda paylaşdığını deyib. Ancaq ərinin sözlərinə inanmayan qadın xəfiyyə tutub. Detektiv sayəsində Lisa ərinin artıq 6 ildir başqa bir qadınla birgə yaşadığını öyrənib.

Demə, keçmiş polis məmuru 52 yaşlı Martin Kurran 31 yaşlı Andrea Viteslə 6 il öncə saxta nikahla evlənib. Aldadıldığı üçün Martini məhkəməyə verən iki uşaq anası Lisa Kurran eyni anda iki qadınla evli olduğu üçün ərinə cəza verilməsini tələb etsə də, məhkəmə kişini günahsız elan edib. Buna etiraz edən Lisa mətbuata açıqlama verərək ərinin həbs olunmasının gərəkdiyini deyib: **“Özümü axmaq kimi hiss edirəm. Məndən başqa hər kəs Martinin necə bir insan olduğunu bilirmiş”.**

# Dünyanın ən bahalı boşanması - 1 milyarda ayrıldılar



**ABŞ-ın və dünyanın ən zəngin iş adamlarından biri, neft maqnatı Harold Hemm arvadını itirsə də, dünyanın ən bahalı boşanması gerçəkləşdirmiş adam kimi tarixə düşüb. Oklahoma ştatı məhkəməsinin qərarı ilə multimilyarder ondan boşanan arvadı Syu Enn Arnalla 995,5 milyon dollar məbləğində təzminat ödəməlidir.**

“Continental Resources” neft-qaz korporasiyasının banisi və sahibi, dünyanın ən varlı adamlarından birinin arvadına ödəməli olduğu 995,5 milyon dolların 1/3 hissəsi ötən ilin sonunadək Syu Enn Arnalla çatmalıydı. Hemm yerdə qalan məbləği ayda ən azı 7 milyon dollar olmaqla ödəməlidir. Hemmin məbləği vaxtında ödəyəcəyinə əmin olmaq üçün məhkəmə “Continental Resources” korporasiyasının 200 milyon dollarlıq səhmlərini girov götürüb.

2012-ci ildə Harold Hemmin ona xəyanət etdiyini aşkarlayan Syu Enn Arnall o vaxtdan bəri təzminat qismində 25 milyon dollar alıb. Dünən Harold Hemmin vəkilləri apelyasiya iddiası qaldırıblar və təzminatın məbləğini azaltmağa çalışıblar. Lakin Syu Enn Arnall ərinin ona ünvanladığı $ 974800000 dollarlıq bank çekindən imtina edib.

O, vəkillərinə yeni prosesə başlamağı tapşırıb. Xəyanətə məruz qalan və boşanan Syu Enn Arnall indi ərindən təzminat qismində 18 milyard dollar tələb edir. Boşanma prosesi əsnasında Syu Enn ərindən Kaliforniyada yerləşən 14,7 milyon dollarlıq rançonu, habelə Oklahomada olan 4,6 milyon və 800 min dollarlıq iki villanı alıb.



## Kompüter oyunları uşaqları qəddarlaşdırır

**Uşaqları qəddarlaşdıran daha çox atışma, davalarla, döyüş səhnələri ilə zəngin oyunlardır. Ayova Dövlət Universitetinin (Iowa State University) apardığı araşdırmalar göstərib ki, aqressiv kompüter oyunları oynayan uşaqlar, yeniyetmələr qəddarlığa, cəmiyyətdən uzaqlaşmağa meyllidirlər. Araşdırmada 8-17 yaşlı uşaq və yeniyetmələr iştirak edib. Kompüter oyunlarına aludə olan bu uşaqların davranışlarını 3 il ərzində müşahidə ediblər.**

Nəticələr göstərib ki, kompüter oyunları oynamağa davam edən uşaqlar getdikcə daha aqressiv, acıqlı olur. Bu uşaqlar yaşıdlarını incidir, mübahisələri neqativ qarşılayırlar. Onlar mübahisə zamanı daha əsəbi davranır, qarşısındakını itələyir, söyüş söyür. Araşdırma aparanlardan Kreyq Anderson (Craig Anderson) deyib: "Həmişə aqressiv oyunlar oynayan uşaqlar böyüdükcə dəyişir, hər hansı məsələni qəddar üsulla həll etməyi üstün tuturlar və bunun normal, əsaslı olduğunu deyirlər".

Oyunlara həvəsi azalan uşaqlar isə 3 il ərzində sakitləşib, daha yumşaq davranırlar.

Mütəxəssislər bildiriblər ki, valideynlər uşaqların oyunlarına diqqət etməli, insan əlaqələrinə əsaslanan, uşaqları yaradıcılığa cəlb edən oyunlar seçməlidirlər.




**QOÇ** - Əsas diqqətinizi maliyyə problemləri-nin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Coca-Cola"ya görə özünü "məhv etdi"



**Los Anceles sakini Corc Prior bir ay ərzində on banka "Coca Cola" içkisi içib. O, bununla həmin içkinin səhhətinə necə təsir göstərəcəyini ölçmək istəyib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. 50 yaşlı kişi bildirib ki, onu xüsusən də sözügedən içkinin tərkibindəki şəkər dozasının orqanizmə göstərdiyi təsir maraqlandırır. Eksperimentin sonlarına yaxın Prior qeyd edib ki, 76 kilodan 86 kiloya qədər kökəlib. Kişinin arterial təzyiqi isə 129/77-dən 145/96-ya qədər yüksəlib. Qeyd edilir bu göstəricilər normadan yüksəkdir. Bunların ucbatından insanlarda ciddi ürək xəstəlikləri və insult riski yüksəlir. Piror qeyd edib ki, bir müddət keçəndən sonra onda həmin içkiyə qarşı ciddi asılılıq yaranıb. Bundan başqa, "nəsə şirin bir şeylər yemək" ehtiyacı da get-gedə artıb. O, daha öncə belə hal yaşamadığını qeyd edir.**

Bununla yanaşı, amerikalı qeyd edib ki, o bu təcrübə ilə insanları yedikləri şəkərin onlara nə qədər ziyan vurması barədə düşünməyə sövq etmək istəyib. 100 qram miqdarındakı "Coca-Cola"da 10.2 qram şəkər var. Kampaniyanı bir neçə dəfə tərkibində çox şəkər olduğuna görə ittiham ediblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300